

“Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq”

9

# İlham Əliyev: “Yaxın on ildə biz daha güclü olacağıq!”

2



**D**ünən ADA Universitetində ”Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq” mövzusunda beynəlxalq konfrans keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib. Dövlətimizin başçısı çıxışında qeyd edib ki, üçtərəfli Bəyanatda Rusiya sülhməramlı kontingentinin dəqiq sayı və 5 il müddətində qalması ilə bağlı vaxt çərçivəsi də göstərilib.



SƏS
№ 076 (6517) 30 aprel 2022-ci il. Qiyməti 60 qəpik

# Azərbaycan-NATO əlaqələri: 30 ildə keçilən uğurlu yol faktoru



5

*Azərbaycan müstəqillik əldə etdikdən sonra aparıcı Qərb dövlətləri ilə münasibətlərini və yüksək səviyyələr üzərində qurmağa başlayıb. Lakin eyni zamanda, bir sıra nüfuzlu siyasi təşkilatlarla iş birliyi qurub, eləcə də hərbi alyanslarla münasibətlərini davamlı inkişaf xəttində tənzimləyib. Bu xüsusda ölkəmizin NATO ilə münasibətləri barədə bir sıra mühüm...*

## Bakıda “Metrix.az" layihəsinin təqdimat mərasimi keçirilib

6



*Dünən Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Azərbaycanın milli rəqəmsal media təhlili platformasının - "Metrix.az" layihəsinin təqdimat mərasimi keçirilib.*

## Qazaxıstanlı senator: “Keosayan neonasistləri İrəvanda axtarsın”

6



***Q**azaxıstan parlament Senatının (yuxarı palata) deputatı Muxtar Kul-Məhəmməd rusiyalı jurnalist Tiqran Keosayanı qazaxıstanlılara qarşı aqressiv hücumuna görə ”təxribatçı” adlandırıb.*

## ADNA-da törədilən faciədən 13 il ötür



***M**üasir dünya inkişaf edir, müasirləşir. Bu o deməkdir ki, insaların düşüncəsi də artıq dar çərçivədə deyil, sivil dünyanın insanı olaraq daha genişdir. Bu gün baş verən hadisələrə, cəmiyyətə yanaşma da fərqlidir. Bəşər sivilizasiyasının yüksək nöqtəsində ağıl və idrakın sivil bir nöqtəyə yüksəldiyi zamanda insana suiqəsdin edilməsi, düşünülmüş terrorun törədilməsi əlbəttə ki, heç bir məntiqə sığa bilməz.*

## Ermənistanda əsgər əsgəri güllələyib

13



Ermənistandakı hərbi hissələrdən birində əsgər odlu silahdan açılan atəş nəticəsində yaralanıb. APA xəbər verir ki, bu barədə Ermənistanın Müdafiə Nazirliyi məlumat yayıb. ”Aprelin 28-i, saat 19.20 radələrində N saylı hərbi hissənin əsgəri, 2002-ci ildə anadan...

## “Pandemiyanın sona çatdığının elan olunması gözlənilə bilər”



“Koronavirus peyvəndlərinin mövsümi peyvənd kimi istifadə edilməsi ilə bağlı ehtimal mövcuddur”. SİA-nın verdiyi məlumata görə, bu sözləri jurnalistlərə açıqlamasında səhiyyə naziri Teymur Musayev deyib.



## Bu xəstəliklərdən əziyyət çəkənlər pensiya alacaq

13

“**O**nkoloji yardım haqqında” və ”Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik Milli Məclisin iclasında...



## “Qalatasaray”da prezident seçkiləri ləğv olundu

16

*“Qalatasaray"da aprelin 30-da keçirilməsi planlaşdırılan prezident seçkiləri ləğv olunub.*

# İlham Əliyev: "Yaxın on ildə biz daha güclü olacağıq!"

## *ADA Universitetində "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans keçirilib*

***Dünən ADA Universitetində "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib. Dövlətimizin başçısı çıxışında qeyd edib ki, üçtərəfli Bəyanatda Rusiya sülhməramlı kontingentinin dəqiq sayı və 5 il müddətində qalması ilə bağlı vaxt çərçivəsi də göstərilib. Tərəflərdən biri beşillik müddətin kifayət etdiyinə qərar versə, bu barədə altı ay əvvəl açıq şəkildə məlumat verməlidir. Hesab edirəm ki, bu, gələcək konfiqurasiyanın anlaşılması üçün çox müsbət amildir.***



*"Fransa ilə münasibətlər bizim üçün hər zaman əhəmiyyətli olub"*

Dövlətimizin başçısı bildirib ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində vəziyyət ötən ilyarım ərzində ümumiyyətlə sabit olub. Düzdür, müəyyən gərginliklər baş verib. Ancaq indi vəziyyət sabitdir. Rusiya sülhməramlıları ilə Azərbaycan hərbçiləri arasında münasibətlər yaxşı səviyyədədir.

"BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etdi. Bu qətnamələrdə Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunsa da, 27 ildə onların heç biri icra edilmədi, biz özümüz onları icra etdik."

Dövlətimizin başçısı deyib ki, o qətnamələri qəbul edənlər BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü idi, onlar həm də ATƏT-in Minsk qrupunun həmsədrləri idilər. Onların nə üçün özlərinin qəbul etdikləri qətnamələri icra etməməsinin səbəbi çox aydındır. "İşğalla bağlı vəziyyət onlar üçün - Ermənistan üçün də, Minsk qrupunun həmsədrləri üçün də məqbul idi. Bizə isə məqbul deyildi, biz azlıqda idik", - deyə Azərbaycan Prezidenti qeyd edib.

"Sülh və qarşılıqlı münasibətlərə gəldikdə, biz bu məsələlərə real yanaşırıq. Çünki biz anlayırıq ki, bu, asan olmayacaq. Ona görə hər şey vaxtında və zamanında edilməlidir." Dövlətimizin başçısı deyib ki, Azərbaycan xalqının yaraları bu 30 il ərzində sağalmayıb. İşğaldan azad olunan torpaqlara bu gün mütəmadi avtobus səfərləri keçirilir, insanlar gedirlər və öz gözləri ilə görürlər. Belə bir nifrətcəsinə münasibət, şəhərlərin dağıdılması, qəbirlərdən cəsədlərin qazılıb çıxarılması ağlasığmazdır.

"O zaman sevdiklərini itirən insanların ağrı-acılarını anlayıram və başa düşürəm. Mən özüm də orada baş verən barbarlığı unutmayacağam. Çünki biz vəhşilikləri unutmamalıyıq, bu, bizim tariximizdir", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

"Mayın əvvəllərində Brüsseldə Azərbaycan və Ermənistan nümayəndələrinin görüşünü təşkil etmək planı var", - deyə dövlətimizin başçısı bəyan edib.



*"Biz məsələlərə real yanaşırıq, anlayırıq ki, Ermənistanla qarşılıqlı münasibətlər asan olmayacaq"*

Avropa İttifaqını Azərbaycanın mühüm tərəfdaşı adlandıran Prezident İlham Əliyev deyib: "Bizim çox geniş əməkdaşlıq gündəliyimiz var. Biz Avropa İttifaqını vicdanlı aktor hesab edir və onun səylərini alqışlayırıq. İndi Minsk qrupu mövcud deyil, ona görə düşünürük ki, Avropa İttifaqı normallaşma prosesində öz rolunu oynaya bilər".

Prezident İlham Əliyev daha sonra qeyd edib ki, biz sülh və əmin-amanlıq şəraitində yaşamaq istəyirik. Artıq sülh sazişini imzalamağın vaxtı gəlib. Dövlətimizin başçısı deyib ki, artıq belə tədbirlər istər Avropada, istərsə də Rusiya, Türkiyə və Amerikada keçirilə bilər, bununla da biz ictimai diplomatiyanı, xalq diplomatiyasını başlaya bilərik.

"Bu cür tədbirlərə hətta Ermənistandan da mütəxəssislər dəvət oluna bilər. Yəni, nifrət deyil, sülh təbliğatçıları olan mütəxəssislər də bu cür tədbirlərə dəvət edilə bilərlər. Yəni, bu, özü gözəl bir bünövrə olar", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Dövlətimizin başçısı Qarabağda və işğaldan azad edilmiş digər rayonların ərazisində bərpa olunan enerji ilə bağlı potensial barədə danışıb: "İlkin hesablamalara görə, həmin ərazilərdə kifayət qədər böyük potensial var. Ermənistanın Azərbaycan ərazilərində 30-dək su elektrik stansiyası məhv etdiyini diqqətə çatdıran dövlətimizin başçısı deyib ki, bu gün Kəlbəcər və Tərtər rayonlarında quruculuq işlərinə başlanılıb. 20MVt-lıq stansiya artıq istifadəyə verilib. Bu il də 25 MVt-lıq hidroelektrik stansiya istifadəyə veriləcək. Ancaq burada su elektrik stansiyalarının potensialı daha çoxdur".

Prezident bərpa olunan enerji mənbələri potensialına da toxunub. "Biz BP şirkəti ilə Cəbrayıl rayonunda 240MVt-lıq günəş elektrik stansiyanın və həmçinin digər beynəlxalq şirkətlərin dəstəyi ilə Kəlbəcərdə külək elektrik stansiyasının tikintisi üzrə danışıqların son mərhələsindəyik", - deyə Prezident İlham Əliyev əlavə edib.

Prezident İlham Əliyev çıxışında qeyd edib ki, yaxın on ildə biz daha güclü olacağıq: "Mən ümid edirəm ki, o zaman, bəlkə 10 ildən də tez bütün anlaşılmazlıqlar, Ermənistanla olan problemlər həll edilmiş olacaq. Eyni zamanda, Cənubi Qafqaz regionu tam şəkildə inteqrasiya edilmiş, bölgənin üç ölkəsinin artıq sıx əməkdaşlığı mövcud olmuş olacaq."

Dövlətimizin başçısı deyib ki, bunun üçün fürsət və imkanlar var. Azərbaycan istər nəqliyyat, istər enerji sahəsində regional layihələrin reallaşdırılmasında, Azərbaycan-Türkiyə kontekstində üçtərəfli əməkdaşlıqda çox mühüm rol oynayır.

**Ardı Səh. 3**

# İlham Əliyev: "Yaxın on ildə biz daha güclü olacağıq!"

## ADA Universitetində "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans keçirilib

Əvvəli-Səh-2

Azərbaycanla Fransa arasında güclü mədəni əlaqələrin mövcud olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bildirib ki, bizim əməkdaşlığımızın tarixi bunu əyani şəkildə nümayiş etdirir.

Dövlətimizin başçısı əməkdaşlığın bir sıra sahələrində böyük nailiyyətlər olduğunu deyib və qeyd edib ki, dəfələrlə Fransa və Azərbaycan mədəniyyəti günləri keçirilib. Azərbaycanın təxminən 10 şəhəri ilə Fransanın şəhərləri qardaşlaşıb. Bakı Fransız liseyinin, həmçinin Azərbaycan-Fransız Universitetinin açılması çox müsbət nəticələrdir. Bizim çox müxtəlif mədəni münasibətlərimiz davam etməkdədir.

”Amma ümumi siyasi münasibətlərə toxunsaq, qeyd edərdim ki, onlar normaldır, artıq normala qayıdıb. Biz anlayırıq ki, güclü Ermənistan diasporu Fransada nəinki qərarvermə prosesinə, eləcə də insanların beyinlərinə mənfi təsir edir. Fransa ilə münasibətlər bizim üçün hər zaman əhəmiyyətli olub. Çünki Fransa dünyanın öndə gedən, lider ölkələrindən biridir. Biz, həmçinin demək istəyirik ki, Azərbaycan heç də Ermənistanın təqdim etdiyi kimi deyil", - deyə Azərbaycan Prezidenti diqqətə çatdırıb.

Prezident İlham Əliyev Azərbaycanın Çin ilə münasibətləri barədə də danışıb. O qeyd edib ki, bu münasibətlər çox uğurla inkişaf edir: ”Çin lideri ilə görüşlərimizdə regional və ikitərəfli münasibətləri kifayət qədər müzakirə etmişik. Qeyd etməliyəm ki, Sədr Si Cinpin məni Çinin böyük dostu adlandırıb. Si Cinpin Azərbaycanın yaxın dostudur və mən 2019-cu ildə ”Bir kəmər, bir yol" beynəlxalq forumuna dəvət edilən məhdud sayda dövlət başçılarından biri idim", - deyə Azərbaycan Prezidenti əlavə edib.

”Təbii qaz məsələsinə gəldikdə, biz müqavilə ilə üzərimizə düşən öhdəliklərimizi 100 faiz icra edirik. Azərbaycan qazı Gürcüstana, Türkiyəyə, Bolqarıstana, Yunanıstana və İtaliyaya ixrac olunmaqdadır. Beləliklə, Türkiyə ilə yanaşı, İtaliya da bizim qaz idxalçımızdır."

Dövlətimizin başçısı qeyd edib ki, ötən il Azərbaycandan İtaliyaya 9 milyard kubmetrdən çox qaz ixrac olunub.

”Təbii ki, biz qazla bağlı hasilatımızı mövcud müqavilələr çərçivəsində planlaşdırırıq və həmin müqavilələrin müəyyən konkret həcmi var, ondan çox hasil etmirik. Amma tələb olarsa, ehtiyac yaranarsa, biz, ilk növbədə, mənbələrə baxmalıyıq. Çünki bizim hasilat potensialımız yerli istehlaka və ixraca hesablanıb. Qaz təchizatının artırılması ilə bağlı artıq bir sıra müraciətlər daxil olub. Təkcə İtaliya deyil, başqa Avropa ölkələrindən bizə müraciətlər daxil olub", - deyə Prezident İlham Əliyev bildirib.

Qeyd edək ki, aprelin 28-də Şuşada işinə başlayan və bu gün Bakıda davam edən ”Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransın ideyası ötən il aprelin 13-də Prezident İlham Əliyevin iştirakı ilə ADA Universitetində keçirilən ”Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda (https://president.az/az/articles/view/51088) yaranmışdı. Həmin konfransda iştirakçılar Qarabağda beynəlxalq konfransın keçirilməsini təklif etmiş və Prezident İlham Əliyev bu təklifi müsbət qiymətləndirmişdi.

Şuşanın BMT və digər nüfuzlu təşkilatların tədbirlərinin əsas ünvanına, bölgənin diplomatik paytaxtına çevrilməsi bu qədim Azərbaycan şəhərinin saxta məlumatlar əsasında uzun illər erməni şəhəri kimi tanıtdırılması məqsədilə aparılan çirkin kampaniyaların da iflası deməkdir.

Təsadüfi deyil ki, beynəlxalq konfransın iştirakçıları aprelin 28-də Şuşada quruculuq və bərpa mövzusunda ”Şuşa - dirçəlişə gedən yol", postmünaqişə dövrünə dair ”Əməkdaşlıq, imkanlar və çağırışlar" adlı panel müzakirələri keçiriblər. Bu mühüm platforma xarici ekspertlərə postmünaqişə dövründə Cənubi Qafqaz ölkələri arasında əlaqələrin inkişafı, kommunikasiyaların açılması imkanlarının nəzərdən keçirilməsi, bölgənin tərəqqisinin, təhlükəsizliyinin və rifahının təməli kimi Azərbaycanın formalaşdırdığı Ermənistanla münasibətlərin normallaşdırılması üçün sülh gündəliyinin müzakirəsi baxımından əlverişli imkan yaradır.

## Birinci vitse-prezident Mehriban Əliyeva Sumqayıtda baş vermiş yanğının söndürülməsində iştirak etmiş dövlət qurumları əməkdaşlarına dərin minnətdarlığını bildirib




***Azərbaycan Respublikasının Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Sumqayıtda baş vermiş yanğının söndürülməsi iştirak etmiş dövlət qurumları əməkdaşlarına dərin minnətdarlığını bildirib.***

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: ”Sumqayıt şəhərinin Hacı Zeynalabdin qəsəbəsində yerləşən ”Azərsun Sənaye Parkı"nın ərazisində baş vermiş yanğının söndürülməsi və nəticələrinin aradan qaldırılmasında iştirak etmiş dövlət qurumları əməkdaşlarının peşəkarlığı ilə fəxr edir və onlara dərin minnətdarlığımı bildirirəm".

## "Tarixən Azərbaycan cəmiyyətində vəhdətin və nümunəvi tolerantlıq mühitinin bərqərar olmasında İslam dini əhəmiyyətli rol oynayıb"

***Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Prezidentin təbrikində deyilir:***



**Hörmətli həmvətənlər!**

Müqəddəs Ramazan bayramı münasibətilə sizi və bütün dünya azərbaycanlılarını ürəkdən təbrik edir, hər birinizə ən xoş arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu Ramazan ayı insanları xeyirxah əməllərə, birlik və bərabərliyə dəvət edən, onlara əxlaqi saflığın, nəfs üzərində qələbənin və ruhi-mənəvi kamilliyin sevincini yaşadan mübarək aylardandır.

Tarixən Azərbaycan cəmiyyətində vəhdətin, həmrəyliyin və nümunəvi tolerantlıq mühitinin bərqərar olmasında İslam dini əhəmiyyətli rol oynamışdır. Milli-mənəvi dəyərlərinə hər zaman dərin bağlılıq nümayiş etdirən xalqımız öz adət-ənənələrini, dini ayin və mərasimlərini bu gün də layiqincə qoruyub saxlayır, o cümlədən Ramazan bayramını hər il xüsusi təntənə ilə keçirir.

Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, haqq işi uğrunda mübarizədə qazandığımız şanlı Zəfərlə azad edilmiş dədə-baba yurdlarımızda həyat yenidən dirçəldilir, tarixi-mədəni irsimiz, ibadət yerlərimiz bərpa olunur, məscidlərimizdən azan sədaları yüksəlir.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həyatını qurban vermiş qəhrəman şəhidlərimizin ölməz xatirəsini bu mübarək bayram günlərində bir daha ehtiramla yad edir, onlara Allahdan rəhmət, ailələrinə səbir, qazilərimizə cansağlığı diləyirəm.

Əziz bacı və qardaşlarım!

On bir ayın sultanı Ramazan ayını şükranlıq duyğuları və könül xoşluğu ilə yola salırıq. İnanıram ki, ölkəmizin əmin-amanlığı və tərəqqisi naminə etdiyiniz dualar sayəsində Uca Tanrı öz mərhəmətini və şəfqətini xalqımızdan əsirgəməyəcəkdir.

Bir daha hamınıza səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət arzulayıram. Allah orucunuzu qəbul etsin.

Bayramınız mübarək olsun!

*"Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır, işğal olunmuş torpaqlar azad ediləcək, yerindən-yurdundan didərgin düşmüş qaçqınlar öz doğma torpaqlarına qayıdacaqlar. Təbiidir ki, bu sahədə beynəlxalq təşkilatlarla yanaşı, Azərbaycan diasporuna da böyük ehtiyacımız var". Ulu öndər Heydər Əliyevin bu fikirləri səsləndirdiyi Dünya Azərbaycanlılarının I Qurultayından tam 21 il ötür... Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının "Şuşa İli"ndə Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşada keçirilən V Zəfər Qurultayında 2001-ci ildə keçirilmiş ilk qurultayı ilə bağlı fikirlərini deyib: "2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. "Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu Öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır".*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİASPORU



*Diaspor quruculuğu siyasəti - Böyük Zəfərdən "Şuşa İli"nə....*

### "BİZ - ULU ÖNDƏRİN DAVAMÇILARI BU SÖZLƏRİ GERÇƏYƏ ÇEVİRDİK"

Dövlət başçısı bildirib ki, artıq Ulu Öndərin davamçıları b usözləri gerçəkliyə çevirib: "Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax, belə gözəl günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir.Qarabağ münaqişəsinin həll edilməsi Prezident kimi mənim üçün başlıca vəzifə idi. Vəzifəyə seçildiyim ilk gündən bu günə qədər bu məsələnin həlli və postmünaqişə dövrünün Azərbaycanın xeyrinə inkişaf etməsi mənim üçün başlıca vəzifədir və bütün güclər səfərbər edilmişdir. Biz hamımız - həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq".

### "BİZ BÖYÜK XALQIQ VƏ HEÇ VAXT BU XALQ, AZƏRBAYCAN XALQI İŞĞALLA BARIŞMAQ FİKRİNDƏ DEYİLDİ"

Prezident İlham Əliyev onu da bildirib ki, dövlət-ordu-xalq birliyinin, həmrəyliyinin gücü ilə Ulu Öndərimizin arzusunu gerçəkləşdirdik: "Mən deyirdim ki, biz hər birimiz hər gün bu müqəddəs günü yaxınlaşdırmalıyıq, öz əməyimizlə, işimizlə, hərə öz yerində və torpaqlarımızın işğaldan azad olunmasından daha vacib və ali vəzifə yox idi. Məhz buna görə ordu quruculuğu sürətlə aparılmışdır, buna görə Azərbaycan müasir orduya malik olmuşdur, buna görə gənc nəsil vətənpərvərlik, düşmənə nifrət, Vətənə sədaqət ruhunda tərbiyə olunurdu, buna görə iqtisadi islahatlar aparılmışdır. Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq və bu günü görmək amalı dururdu. Biz buna öz gücümüzlə nail olduq. Azərbaycan xalqı 30 il davam edən mənasız danışıqlar əvəzinə öz gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi və bütün dünyaya sübut etdi ki, biz böyük xalqıq və heç vaxt bu xalq, Azərbaycan xalqı işğalla barışmaq fikrində deyildi. Mən dəfələrlə, o cümlədən birinci Qurultaydan sonra keçirilmiş Dünya Azərbaycanlılarının qurultaylarında çıxış edərkən deyirdim ki, biz heç vaxt bu işğalla barışmayacağıq, nəyin bahasına olursa-olsun, öz dədə-baba torpaqlarımızı işğaldan azad edəcəyik... Biz təkcə Ermənistanla müharibə aparmamışıq. Biz təkcə dünya erməniliyi ilə müharibə aparmamışıq, biz Ermənistanın himayədarları ilə müharibə aparmışıq və bu müharibədə Qələbə qazanmışıq. Ona görə bu Qələbənin tarixi əhəmiyyəti daha böyükdür. Biz sübut etmişik ki, ölümə getməyə hazırıq, öldü var, döndü yoxdur. Müstəqillik dövründə vətənpərvərlik ruhunda yetişən gənclərimiz ölümə gedirdilər, bilərəkdən ölümə gedirdilər Vətən uğrunda".

### HEYDƏR ƏLİYEV - DÜNYA AZƏRBAYCANLILARININ TƏŞKİLATLANMASI VƏ DİASPOR QURUCULUĞUNDA

1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. O gündən başlayaraq dünyada yaşayan azərbaycanlılar hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü qeyd edirlər. Ulu Öndər 31 dekabr tarixini bayram elan etməklə dünyada yaşayan azərbaycanlıların vətəninə bağlılığını daha da artırmış oldu. Onları birliyə, həmrəyliyə, Azərbaycanın köməyinə səslədi. Heydər Əliyev dünya azərbaycanlılarına müraciətində deyirdi: "Biz istərdik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşları kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Çünki bizi birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir... Vətənini, millətini sevən hər bir azərbaycanlı müstəqilliyimizin dönməzliyi üçün ciddi səy göstərməli, vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır".

### AZƏRBAYCAN DİASPORUNUN İNKİŞAFINDA, BİRLİK VƏ HƏMRƏYLİK YOLUNDA YENİ MƏRHƏLƏ

Azərbaycan diasporu bu gün öz inkişafının birlik və həmrəyliyinin yeni, ən yüksək mərhələsini yaşayır. Azərbaycanın dövlət müstəqilliyinin onilliyində Ulu Öndər Dünya Azərbaycanlıların I Qurultayının keçirilməsinə qərar verdi və bu qurultay 2001-ci il noyabr 9-10-da baş tutdu. Qurultayın əsas məqsədi dünyada yaşayan azərbaycanlıları təşkilatlandırmaq və bir amal ətrafında birləşdirmək məqsədilə diaspor komitəsinin yaradılması məsələsini müzakirə etmək idi. Dünya Azərbaycanlılarının I Qurultayında 36 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatı təmsil etməklə, 406 nümayəndə və 63 qonaq iştirak edirdi. Qurultay müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına ciddi təsir göstərdi. Həmin qurultayda Ulu Öndərin böyük iftixarla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı dillər əzbəri oldu.

### V ZƏFƏR QURULTAYI TARİXİ "ŞUŞA İLİ"NDƏ QARABAĞIMIZIN TACI ŞUŞAMIZA DOĞRU

Diasporla İş üzrə Dövlət Komitəsi fəaliyyətini bu gün yaratdığımız yeni reallığa uyğun qura bilib. 44 günlük Vətən müharibəsi dövründə Komitə dünyanın bir çox ölkələrində azərbaycanlıları birləşdirərək mitinqlər və aksiyalar keçirməklə ədalətli mövqeyimizin dünyaya çatdırılmasında yaxından iştirak edib. Azərbaycan qalib ölkədir və diaspor fəaliyyəti Qələbəmizin daha da möhkəmlənməsi istiqamətində dövlətimizin başçısının apardığı siyasi kursuna uyğun formalaşdırılıb.

Ötən 19 ildə İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində Azərbaycanın yüksəlişinin ortaya qoyduğu ən böyük reallıqlardan biri xalqımızın milli həmrəyliyinin daha da güclənməsidir. Məhz bu siyasətin məntiqi nəticəsi olaraq cənab İlham Əliyev bütün seçkilərdə tək Azərbaycan vətəndaşlarının deyil, dünyanın bütün ölkələrində yaşayan soydaşlarımızın dəstəyini alıb, onların alternativsiz lideri olub.Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V qurultayında bildirmişdir ki, mən çox şadam ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız Azərbaycan ilə daim təmasdadırlar: "Əlbəttə, biz hamımız - Azərbaycanda yaşayan azərbaycanlılar istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olsunlar. Heç olmasa, ildə bir dəfə hər bir azərbaycanlı öz ailəsi ilə Azərbaycana gəlsə, çox yaxşı olar - xüsusilə azad edilmiş torpaqlara getmək üçün. İndi bu gün biz qurultayı Şuşada keçiririk. Ancaq azad edilmiş ərazilər 10 min kvadratkilometrdən çoxdur və indi marşrutlar da açılır, aeroportlar da tikilir. Ona görə gəliş-gediş çox rahat olacaq. Əlbəttə, çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətinə bağlı olsunlar. Əlbəttə, bu, o qədər də asan məsələ deyil. Burada onlar, ilk növbədə, Azərbaycan dilini bilməlidirlər. Burada, əlbəttə ki, təkcə ailələrdə Azərbaycan dilini yaşatmaq mümkündür, ancaq kifayət deyil. Ona görə Azərbaycan məktəblərinin, bazar günü məktəblərinin açılması istiqamətində də biz hər zaman kömək göstərməyə hazırıq. Əslində, bunu edirik. Bəlkə də bunu daha da təşkilatlanmış şəkildə etmək lazımdır".

### ULU ÖNDƏRİN SÖZLƏRİNİ GERÇƏKLİYƏ ÇEVİRƏN QALİB LİDER!

8 noyabr 2020-ci il - ŞUŞA AZADDIR! Bizə bu hissləri yaşadan Ali Baş Komandanımız İlham Əliyev və Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda canından-qanından keçən rəşadətli əsgər və zabitlərimizdir. Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində dövlətimizin başçısı bütün diplomatik təzyiqlərə də sinə gələrək, mürəkkəb məsələlərin öhdəsindən uğurla, ləyaqətlə gəlməyi bacardı. Çünki Prezidentimiz xalqımızı oddan-alovlardan, məhv olmağın astanasından qurtaran Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev siyasətinin layiqli davamçısıdır. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" - deyən Ümummilli Liderin nə qədər dahi və uzaqgörən şəxsiyyət olduğu hər keçən gün sübut olunur. Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və iradəsi sayəsində işğalda olan bütün torpaqlarımızı, o cümlədən Qarabağın tacı Şuşanın nəyin bahasına olursa-olsun, düşmən tapdağından azad edəcəyinə əmin idi. Ulu öndərimizin dediyi kimi: "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur". Xalqımız artıq bir ildən çoxdur ki, tarixi Qələbənin sevinci ilə yaşayır.

"Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndər Heydər Əliyevin bu arzusunu Ali Baş Komandan, Prezident İlham Əliyev reallaşdırdı. Ruhunuz şaddır indi, Ulu Öndər!

**RƏFİQƏ KAMAQIZI**

# Azərbaycan-NATO əlaqələri: 30 ildə keçilən uğurlu yol faktoru

*Azərbaycan müstəqillik əldə etdikdən sonra aparıcı Qərb dövlətləri ilə münasibətlərini və yüksək səviyyələr üzərində qurmağa başlayıb. Lakin eyni zamanda, bir sıra nüfuzlu siyasi təşkilatlarla iş birliyi qurub, eləcə də hərbi alyanslarla münasibətlərini davamlı inkişaf xəttində tənzimləyib. Bu xüsusda ölkəmizin NATO ilə münasibətləri barədə bir sıra mühüm məqamlara toxunmaq olar.*

Artıq cari 2022-ci il NATO-nun Azərbaycanla əməkdaşlığının 30-cu ildönümü kimi qiymətləndirilir. Belə ki, Azərbaycanla NATO arasında əlaqələr 1992-ci ildə Azərbaycanın yeni yaradılan Şimali Atlantika Əməkdaşlıq Alyansına daxil olması ilə başlayıb və sonrakı illərdə inkişaf etdirilib. Belə ki, Azərbaycanın NATO ilə daha sıx əməkdaşlığı 1994-cü ildə Ulu Öndər Heydər Əliyev tərəfindən Brüsseldə "Sülh naminə Tərəfdaşlıq" çərçivə sənədinin imzalanması ilə inkişaf edib. Məhz Heydər Əliyevin 1997-ci il noyabrın 21-də imzaladığı Fərmanına əsasən, Azərbaycanın NATO-da diplomatik nümayəndəliyi təsis olunub və bu gün də həmin nümayəndəlik fəaliyyətini uğurla davam etdirməkdədir.

Xüsusilə qeyd edə bilərik ki, Azərbaycanın xarici siyasət istiqamətlərindən biri də bu hərbi alyansa inteqrasiyası ilə bağlıdır. Təkcə ötən illərə nəzər salsaq biz inteqrasiya siyasətinin bir sıra mühüm məqamlarını görmüş olarıq. Beləliklə:

**1994-cü ildən NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulma;**

**1999-cu ildə NATO Parlament Assambleyasına müşahidəçi;**

**2002-ci ildən isə assosiativ üzv;**

**2004-cü ildən "Fərdi tərəfdaşlıq" proqramlarına qoşulma.**

Daha bir xatırlatmanı da qeyd edə bilərik ki, 1994-cü ildə NATO ilə təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün Sülh Naminə Tərəfdaşlıq (SNT) Çərçivə Sənədi imzalanıb. 1997-ci ilin noyabrında NATO əməliyyatlarının müdafiə planlamasına Azərbaycanı daha sıx cəlb etmək üçün ölkəmiz SNT-nin Planlaşdırma və Baxış Prosesinə qoşulub. Azərbaycan Prezidentinin 1997-ci il 12 noyabr tarixli fərmanına əsasən, NATO ilə Əməkdaşlıq üzrə Xüsusi Komissiya yaradılıb. NATO Siyasi Komitəsi 1998-ci il mayın 12-də Azərbaycanın "19+1" formatında SNT-də iştirakını müzakirə edib. 1998-ci il noyabrın 15-də SNT SOFA və onun Əlavə Protokolu Azərbaycan tərəfindən imzalanıb. 1999-cu ilin sentyabrında Qafqazda regional əməkdaşlığı araşdırmaq üçün EAPC xüsusi işçi qrupu yaradılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin NATO ilə Azərbaycan arasında əməkdaşlığa daim önəm verib və əbəs deyil ki, 2004-cü ildə ölkəmiz qurumun Fərdi Tərəfdaşlıq Fəaliyyət Planına qoşulduğu üçün münasibətlər daha da genişləndirilir. Prezident İlham Əliyev dəfələrlə NATO-nun mənzil-qərargahını ziyarət edib, NATO-nun Baş katibləri isə Azərbaycana müxtəlif hərbi-siyasi məsələlərin müzakirəsi üçün səfərlərə gəliblər. O cümlədən, dövlətimizin başçısı NATO-nun Zirvə görüşlərində iştirak edib (İstanbul 2004, Buxarest 2008, Lissabon 2010, Çikaqo 2012, Kardiff 2014, Varşava 2016, Brüssel 2018) və Alyansla sıx əlaqələr hazırda da davam etdirilir.

### Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi zəfəri nəticəsində yaranmış yeni reallığı NATO da qəbul edib

Vacib məqamlarddan biri də budur ki, NATO daim Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstəyini göstərib. Bu dəstək qurumun 9 Zirvə görüşündə öz əksini tapıb. Zirvə görüşlərinin yekun sənədlərində Azərbaycanın müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə rəsmi dəstək ifadə olunub. Misal üçün, sənədlərdə Cənubi Qafqazdakı münaqişələrin, o cümlədən keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinin vacibliyi vurğulanıb, 2006-cı il noyabr 28-29-da Riqada keçirilən Şimali Atlantika Alyansının toplantısında, 2008-ci il aprelin 2-4-də Buxarestdə keçirilən NATO/EAPC və ISAF, 2009-cu il aprelin 3-4-də Strasburqda keçirilən zirvələrdə verilən bəyannamələr çərçivəsində Azərbaycanın ərazi bütövlüyü birmənalı olaraq dəstəklənib.

Qeyd edək ki, NATO 44 günlük İkinci Qarabağ müharibəsi zamanı bir neçə dəfə Azərbaycan və Ermənistanı atəşkəsə, danışıqlara çağırıb. 2020-ci ilin oktyabr ayında NATO-nun Baş katibi Yens Stoltenberq Ermənistanın keçmiş prezidenti Armen Sarkisyanla keçirdiyi mətbuat konfransı zamanı ona Alyansın bu münaqişə ilə məşğul olmadığını başa salıb. Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi zəfəri nəticəsində yaranmış yeni reallığı NATO da qəbul edib. Məsələn, NATO-nun ötən il Brüsseld keçirilmiş Zirvə görüşünün yekun mətnindən keçmiş Ermənistan-Azərbaycan münaqişəsinə istinad edən bənd çıxarılıb. Bu, həm də onu göstərir ki, Alyans münaqişəni başa çatmış sayır.

Azərbaycan və NATO arasında mina və partlamamış silah-sursatların təmizlənməsinə dair "Saloğlu" və "Ceyrançöl" layihələri kimi praktiki layihələr uğurla həyata keçirilib

Hazırda Azərbaycan və NATO arasında praktiki əməkdaşlığın əsas istiqamətlərini müdafiə və təhlükəsizlik sektorunda islahatlar, beynəlxalq əməliyyatlarda iştirak, fövqəladə hallara hazırlıq, təhlükəsizliklə əlaqəli olan elmi və ekoloji məsələlər və ictimai diplomatiya təşkil edir. Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşdırılması istiqamətində ciddi addımlar atılır. 2002-ci ildən etibarən Azərbaycanın 30-dan çox zabiti NATO-nun mənzil-qərargahında və qurumlarında xidmət edib. Hazırda Azərbaycan Ordusunun zabitləri NATO-nun mənzil-qərargahında (Brüssel, Belçika) və NATO Müttəfiq Qüvvələrin Avropadakı Baş Komandanlığının Tərəfdaşlıq İdarəsində (Mons, Belçika) hərbi nümayəndəlik tərkibində milli vəzifələrdə xidmət edir. Azərbaycan və NATO arasında mina və partlamamış silah-sursatların təmizlənməsinə dair "Saloğlu" və "Ceyrançöl" layihələri kimi praktiki layihələr uğurla həyata keçirilib.



*Azərbaycanın ərazi bütövlüyü təmin olunduqdan sonra tərəflər arasında əməkdaşlıq daha da inkişaf edib, genişlənəcək və yeni mərhələyə keçəcək*

Onu da qeyd edək ki, Azərbaycan Ordusunun NATO-nun ƏİK Ortaq Qüvvələr Birliyinə (Əməliyyat İmkanları Konsepsiyası) proqramına bəyan edilmiş bölmələri aşağıdakılardır: Sülhməramlı Qüvvələr Taboru (1), Kəşfiyyat Bölüyü (1), "Mİ-17" Helikopter Cütlüyü (1), Dənizdə Qadağa Əməliyyatları üzrə Göyərtə Qrupu (1).

Xatırladaq ki, Azərbaycan Silahlı Qüvvələrinin birləşmələri müxtəlif vaxtlarda Kosovo, İraq və Əfqanıstanda sülhməramlı qoşunların tərkibində də iştirak edib, uğurlu nəticələr əldə olunub.

### Azərbaycan hərbçisi Kosovada

Azərbaycan 1999-2008-ci illərdə NATO-nun rəhbərliyi ilə Kosovoda keçirilən sülhməramlı və sülhə dəstək əməliyyatlarında (KFOR) iştirak edib. Azərbaycan 1999-cu il sentyabrın 1-də Kosovoya 34 hərbçidən (32 əsgər, 2 zabit) ibarət bir birlik göndərib. Ümumilikdə Kosovodakı missiyada Azərbaycandan 362 hərbi qulluqçu (345 əsgər, 17 zabit) xidmət edib. Azərbaycanlı hərbi qulluqçular Kosovoda missiyalarını 2008-ci il martın 4-də başa vurub.

### Azərbaycan hərbçisi İraqda

Azərbaycan hərbçiləri İraqda da sülhməramlı missiya həyata keçiriblər. 2003-cü il avqustun 15-dən 2008-ci il dekabrın 7-dək İraqın Beynəlxalq Koalisiya Qüvvələri daxilində sülhməramlı missiyada 151 şəxsi heyətdən (120 əsgər, 31 zabit) ibarət Azərbaycan hərbi kontingenti iştirak edib. Azərbaycan 2008-ci il dekabrın 7-də Koalisiya Qüvvələrinin geri çəkilməsi səbəbindən İraqdan qüvvələrini çıxarıb.

### Azərbaycan hərbçisi Əfqanıstanda

Azərbaycan 2002-ci il noyabrın 15-də Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Dəstək Qüvvələri (ISAF) əməliyyatını dəstəkləmək üçün 22 hərbçidən ibarət bir hərbi birlik göndərib. 2009-cu ilin fevral ayından etibarən 90 nəfər Azərbaycan şəxsi heyəti ISAF-ın rəhbərlik etdiyi Türkiyə birliyində xidmət edib. 2018-ci ilin yanvar ayından Azərbaycan NATO-nun Əfqanıstanda keçirdiyi "Qətiyyətli Dəstək" missiyası üzrə Azərbaycan Ordusunun sülhməramlı kontingentinin şəxsi heyətinin sayı 120 nəfərə çatdırılmışdı. Azərbaycan Ordusunun sülhməramlı kontingenti Kabil Beynəlxalq Hava Limanının mühafizəsi tapşırığını icra etmiş, uyğun qərargahlarda təmsil olunmuşdu. Azərbaycanlı birliklər Kabildə yerləşən televiziya qülləsini, ISAF-ın mərkəzi sursat anbarının təhlükəsizliyini və patrul xidmətini yerinə yetiriblər. NATO-nun Baş katibi Yens Stoltenberq 2021-ci ilin avqust ayında hava limanında təhlükəsizliyin təmin edilməsindəki xidmətlərinə görə Azərbaycana təşəkkürünü ifadə edib.

### NATO-Azərbaycan əməkdaşlığı elm, təhsil kimi digər sahələrdə də uğurla inkişaf etdirilir

2017-2020-ci illərdə isə Azərbaycan NATO-Rusiya və ABŞ-Rusiya arasında yüksək vəzifəli hərbçilərin 7 görüşünə ev sahibliyi edib, Bakı istənilən müzakirələrin mərkəzi meydanı olaraq qiymətləndirilib. Onu da qeyd edək ki, Azərbaycan-NATO əlaqələrinin 15 illiyinə həsr olunmuş poçt markası da buraxılıb.

Təhlükəsizlik məsələləri ilə yanaşı, NATO-Azərbaycan əməkdaşlığı elm, təhsil kimi digər sahələrdə də uğurla inkişaf etdirilir. 2008-ci ildən etibarən təhsil sahəsində NATO ilə əməkdaşlıq edən Azərbaycan Ordusu NATO-nun Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramından yararlanmaqla tabeliyində olan xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin tədrisinin məzmun və formasının Avropa təhsil standartlarına və Boloniya prosesinə uyğunlaşdırılması, eləcə də pedaqoji kadrların təkmilləşdirilməsi sahəsində addımlar atıb. NATO-nun "Sülh və Təhlükəsizlik Naminə Elm Proqramı" elmin inkişafı və yeniliklərin tətbiqi yolu ilə NATO və Tərəfdaşlar arasında əməkdaşlıq və dialoqun genişləndirilməsinə, qarşılıqlı təhlükəsizlik problemlərinin həllinə, bilik mübadiləsinə, eləcə də tədqiqatların aparılması və innovasiyaların tətbiqi üçün mühüm bir vasitədir. Müdafiə Nazirliyi qeyd olunan proqram çərçivəsində bir neçə layihəyə imza atıb. Əslində, sadalananlar Azərbaycanla Alyans arasında əməkdaşlığı əks etdirən çoxsaylı faktların bir qismidir. Tərəflər arasında əməkdaşlıq davam və inkişaf edir.

Bütün bu reallıqlar Azərbaycanla NATO arasında əməkdaşlığın inkişaf etdiyini təsdiqləyən amillərdir. Ehtimal etmək olar ki, Azərbaycanın ərazi bütövlüyü təmin olunduqdan sonra tərəflər arasında əməkdaşlıq daha da inkişaf edib, genişlənəcək və yeni mərhələyə keçəcək.

**Rövşən RƏSULOV**

ANALITIK-AKTUAL

# Rusiyanın Avropa ilə “qazlama” oyunu: nə udulur, nə uduzulur?

***Avstriya rus qazını rus rublu ilə almaq, eləcə də Rusiyanın şərtləri razılaşmaq qərarını verməklə Avropa İttifaqı ölkələri sırasında ikincisi oldu. Lakin buna baxmayaraq, Avropa ölkələrinin heç də hamısı Rusiya ilə kompromisə getməyə hazır deyillər və bunun da bir sıra əsasları mövcuddur.***

*Bu oyunlar növbəti geosiyasi və geoiqtisadi qarşıdurmalara şəraitlər yaratmağa başladıb*



Avstriyaya gələndə isə bu ölkənin enerji resurslarının alışı və satışı ilə məşğul olan OMV aparıcı şirkəti rus qazına ödəniş etmək üçün yeni sxem qəbul edib. Belə ki, Avstriya əvvəlki kimi avro ilə ödəniş edəcək, ancaq ölkədəki şirkətlər ”Qazprombank”da ayrıca hesab açmalıdırlar. Sonradan isə avro ilə edilən ödənişlər rus rubluna çevriləcək. ”Biz, yəni OMV Almaniya hökumətində olduğu kimi ödəniş şərətlərini qəbul etdik. Onlar sanksiya şərtlərinə müvafiqdirlər. Bizim üçün də bu vacib idi”, deyə Avstriyanın kansleri Karl Nexammer bildirib.

### Avstriya Macarıstandan sonra Rusiya qazını rus rublu ilə almağa razılaşan ikinci Aİ ölkəsi oldu

Avstriya üçün Rusiyadan idxal edilən qazın saxlanılması ölüm-qalım məsələsidir, ona görə ki, bu ölkə 80% Rusiya ixracından asılıdır. Eyni zamanda, Avstriyanın energetika naziri Leonarde Qevessler deyib ki, avstriyalılar yeni qaz tədarükçüləri axtaracaqlar. Böyük hesabla bu müvəqqəti qərardır, bütövlükdə isə hətta Rusiyanın etibarlı partnyorları belə bu ölkədən az asılı olmaq istəyirlər. Beləliklə, Avstriya Macarıstandan sonra rus rublu ilə Rusiya qazı alacaq ikinci ölkəyə çevrildi. Bunu Macarıstanın xarici işlər naziri Peter Siyyaro da bəyan edib. ”Azprombank” üzərindən ediləcək yaxın ödəniş isə may ayının 22-də olacaq. Macarıstan üçün də qaz məsələsi prinsipiallıq daşıyır, bu ölkə isə Rusiyadan 60-70 % asılı vəziyyətdədir.

Lakin görünən budur ki, Avropanın bütün ölkələri Avstriya, yaxud Macarısan kimi eyni addımları atmağı düşünürlər. Bu ölkələr sırasında ən çox anti-Rusiya ruhunda köklənən Polşa, eləcə də Aİ-nin təzyiqləri altında öz mövqeyini dəyişən Bolqarıstandır. Bu ölkələr rus qazına görə yeni modelə keçməkdən qətiyyətlə imtina edirlər. Xüsusilə Polşa Ukraynaya silah göndərən ölkə olaraq prinsipiallıq nümayiş etdirir və Varşava Rusiyanın şərtlərini qəbul edərsə sərt sanksiyaları dəstəkləyən tərəf olması ilə yanaşı, bunu özü üçün kapitulyasiya kimi də qiymətləndirə bilər. Artıq bu kimi prinsipiallıq səbəbindən Rusiya həm Polşanın, həm də Bolqarıstanın qaz tədarüklərini kəsib.

### Qaz böhranı Avropada parçalanma situasiyasını yaradıb

Amma diqqət çəkən məqamlardan biri də budur ki, qaz böhranı Avropada parçalanma situasiyasını yaradıb. Yəni bu gün Aİ-nin bütün ölkələri heç də 6-cı və 7-ci neft-qaz embarqosu xarakterli sanksiya paketlərini qəbul etməkdə maraqlı deyillər. Görünür, bu səbəbdən ”Qazprom”un bir sıra avropalı müştəriləri ödəniş sisteminin rus rublu ilə həyata keçirilməsinə razılıq veriblər. Məsələn, Blumberg agentliyi məlumat verir ki, Avropanın 10 şikkəti ”Qazprombank”da hesab açıblar, onlarda dördü isə artıq ilk kubametrlərə görə ödənişlərini də həyata keçiriblər.

Görünən isə budur ki, hətta Rusiyanın NATO ilə açıq qarşıdurmasının mümkünlüyü fonunda belə avropalı şirkətlər, eləcə də Avstriya, Macarıstan kimi dövlətlər rus qazından imtina etmək fikrində deyillər. Digər məlumatda isə bildirilir ki, ABŞ bu yaxınlarda Almaniyanın Remştayn şəhərində özünün 40 müttəfiq ölkələri ilə qapalı iclasını keçirib. Onlar həmin iclasda Ukraynanın hərbi yardımlarının sinxronlaşdırılması barədə müzakirələr aparıblar. Daha dəqiq desək, ABŞ Avropadan Ukrayna silahlı qüvvələri üçün tankların, təyyarələrin, helikopterlərin verilməsini tələb edib.

### Ukrayna ağır texnikaların verilməsi prosesi neft-qaz embarqosunu hədəfləyir

Vaşinqton yaxşı bilir ki, Avropa ölkələrinin Ukraynaya əlavə yardımların verilməsi Rusiya ilə münasibətləri daha köklü şəkildə pozacaq. Avropanın Rusiyaya münasibəti həm də ona görə daha pisləşəcək ki, Kreml sərhədlərdən Ukrayna ərazisinə keçirilən istənilən cəhdləri hədəf kimi gördüyünü bəyan edib.

Düzdür, NATO-Rusiya qarşıdurmasının açıq müharibəyə keçid alacağını demək olmaz, ona görə ki, bu ABŞ-a sərf etmir, lakin Avropa İttifaqı ilə Rusiyanın açıq müharibəyə getməsi Vaşinqtona müəyyən mənada sərf edir. Belə ki, belə olan halda bu gün Rusiyadan Moskvanın yuxarıda qeyd edilən şərtləri bahasına qaz alan Avstriya və Macarıstan kimi ölkələr, həmçinin Avropa şirkətləri idxalı dayandırmalı olacaqlar. Hətta bu plan işləməsə belə, Ukrayana ağır texnikaların verilməsi prosesi neftqaz embarqosunu hədəfləyir və bu, ukraynalı hərbçilərin Rusiyaya qarşı daha effektiv müqavimət göstərəcəklərinə şərait yaradır, o cümlədən, Rusiyanın xüsusi əməliyyatının da müddəti uzanır.

Beləliklə, Qərb KİV-ləri ritorikalarını daha fəal şəkildə Rusiyaya qarşı işlətməklə Şimal ölkəsini hərbi cinayətkar statusunda təqdim edəcəklər, bu isə yeni və sərt sanksiya paketlərinin qəbul olunmasına gətirib-çıxaracaq. Bu proses - Rusiyanın zəifləldilməsi ABŞ-a hava-su kimi lazımdır. Hazırda isə Rusiyanı qıcıqlandırmaq üçün növbəti plan işə salınıb. Bu plan Finlyandiya və İsveçin NATO-ya üzv olmaları ilə bağlı verdikləri qərarlarıdır.

### Ukrayna hazırda Rusiyanın Avropa ölkələri ilə birdəfəlik əlaqələrinin kəsilməsi baxımından anqlo-sankson strategiyası üçün əsas cəbhəyə çevrilib

Başqa tərəfdən, Ukrayna hazırda Rusiyanın Avropa ölkələri ilə birdəfəlik əlaqələrinin kəsilməsi baxımından anqlo-sankson strategiyası üçün əsas cəbhəyə çevrilib. Ancaq bu da sonuncu plan deyil. Hələ mart ayında ABŞ-ın milli təhlükəsizlik məsələləri üzrə keçmiş köməkçisi Con Bolton təklif edirdi ki, Rusiya sərhədlərinin perimetri boyunca yerdə qalan dondurulmuş münaqişələri yenidən işlək vəziyyətə gətirmək, habelə Dnestryanı adlı süni mövcudluğu da aradan qaldırmaq lazımdır. Maraqlıdır ki, Rusiyanın Ukraynaya qarşı hərbi əməliyyatlara başladığı vaxtın ilk günlərində rəsmi Kiyev də bu məsələni qabartmışdı. Artıq bu gün biz Rusiyanın fikrinin Ukraynadan yayındırılması hallarını müşahidə edirik. Belə ki, Dnestryanıda baş verən son silahlı aksiyalar da belə deməyə əsas verir. Həmçinin, ehtimal etmək mümkündür ki, bənzər insidentlər Rusiya sərhədlərinin başqa nöqtələrində də baş verə bilər. Necə deyərlər, Rusiyanın Ukrayna ilə müharibəsindən doğan və Qərb ilə başlatdığı ”qazlama” oyunları növbəti geosiyasi və geoiqtisadi qarşıdurmalara şəraitlər yaratmağa başladıb.

*Rövşən RƏSULOV*

# Bakıda “Metrix.az” layihəsinin təqdimat mərasimi keçirilib




*Dünən Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Azərbaycanın milli rəqəmsal media təhlili platformasının - "Metrix.az" layihəsinin təqdimat mərasimi keçirilib.*

Tədbirdə çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov müxtəlif istiqamətlərdə həyata keçirilən islahatların davamı olaraq onlayn media subyektləri üçün əlavə reklam fürsətlərinin yaradılmasında media təhlili platformasının əhəmiyyətini vurğulayıb. Bildirib ki, milli sayğac vasitəsilə veb-saytların reytinqinin müəyyənləşdirilməsi biznes strukturları üçün etibarlı data baza formalaşdıracaq. Medianın İnkişafı Agentliyinin onlayn media və rəqəmsal marketinq üzrə eksperti Fəxri Eminov media təhlili platforması - ”Metrix.az” layihəsinə dair təqdimatla çıxış edib.

Qeyd edək ki, ”Metrix” təhlil platforması 50-dən çox yerli informasiya veb-saytı və keçirilən sorğular vasitəsilə ölkədə ən çox oxunan xəbərləri, günün trendlərini və digər statistik məlumatları özündə ehtiva edir. Tədbir panel müzakirələrlə davam edib.

# Qazaxıstanlı senator: “Keosayan neonasistləri İrəvanda axtarsın”



***Qazaxıstan parlament Senatının (yuxarı palata) deputatı Muxtar Kul-Məhəmməd rusiyalı jurnalist Tiqran Keosayanı qazaxıstanlılara qarşı aqressiv hücumuna görə ”təxribatçı” adlandırıb. AZƏRTAC xəbər verir ki, bunu Qazaxıstan parlament Senatının deputatı Muxtar Kul-Məhəmməd açıqlamasında bildirib.***

Deputat deyib ki, T.Keosayan beynəlxalq siyasətçi və ya Xarici İşlər Nazirliyinin əməkdaşı deyil, onun sözləri Rusiya prezidenti və xarici işlər nazirinin rəsmi mövqeyi ilə ziddiyyət təşkil edir.

”Qazaxıstan iqtisadi səbəblərə görə hərbi parad keçirməkdən imtina edib və əgər Keosayan bu tədbirin keçirilməsində israrlıdırsa, o zaman onu Ermənistanda təşkil etsin. Tiqran Keosayanın açıqlamaları açıq şəkildə təxribat xarakteri daşıyır. Hərbi parad keçirməklə bağlı ”hiyləgər” məsləhətini həmyerlilərinə - ermənilərə ünvanlasın. Qoy, o, qardaşları ilə birgə İrəvanda Almaniyada nasist və faşistlərlə çox fəal əməkdaşlıq edən, SS xidməti ilə əlaqədə olan Qaregin Njdenin abidəsi önünə yürüş etsin. Neonasistləri bizdə yox, öz mühitində axtarsın, qarışıqlıq onun başındadır. Qələbə günü bizim üçün müqəddəs bayramdır. Biz bunu hər il və heç bir paradsız qeyd edirik”, - deyə senator bildirib.

Xatırladaq ki, bu il aprelin 24-də T.Keosayan yutub kanalında qazaxıstanlılar haqqında mənfi fikirlər səsləndirib, onları nankor adlandırıb.

# Dünən terroru yaradanlar bu gün qurbana çevrilib



*İngiltərədə aparılan araşdırmalara görə terror riski ən yüksək olan ilk 9 ölkə İraq, Əfqanıstan, Pakistan, Somali, Livan, Hindistan, Əlcəzair, Kolumbiya və Taylanddır.*



İraqda terrorla bağlı vəziyyət 2010-cu ildə yaxşılaşmışdı, lakin 2009-cu ildə təxminən 4500 mülki şəxsin ölümü İraqı hələ də siyahının başında saxlayır. Müqayisəyə əsasən, terror riski yüksək olan bəzi ölkələr və onların sıralaması aşağıdakı kimidir:

2010-cu ildə "Orta risk" ölkələri arasında Filippin (10), Türkiyə (14), Rusiya (15), Nigeriya (24) və İspaniya (34), Böyük Britaniya (41), Çin (43), ABŞ (46) və Fransa (56) yer alarkən, Almaniya (81), Kanada (116) və Avstraliya (120) "aşağı risk" siyahısına daxil edilib.

## Terrorizm dünyada ilk dəfə harada olub?

Terror sözü ilk dəfə Fransada Fransa inqilabından sonra istifadə edilib. İnqilabdan sonra 1793-cü ilin martından 1794-cü ilin iyuluna qədər olan dövr "terror rejimi" və ya "terror hökmranlığı" adlandırıldı.

## İslamda terror var?

İslam dini terrora, zorakılığa və gərəksiz müharibələrə tamamilə qarşıdır. O, zorakılığı, terroru və öldürməyi qadağan edib. İslam sevgi, hörmət və insanlığı, sülh içində yaşamağı məsləhət bilir. Bu səbəblə İslam sevgi, sülh və əmin-amanlıq dinidir.

## Azərbaycanda olan terror hadisələri:

16 sentyabr 1989-cu il. "Tbilisi-Bakı" marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır.

18 fevral 1990-cı il. Yevlax-Laçın yolunun 105-ci km-də "Şuşa-Bakı" marşrutu ilə hərəkət edən avtobus partladılmış, çoxlu insan tələfatı olmuşdur.

11 iyul 1990-cı il. "Tərtər-Kəlbəcər" sərnişin avtobusu partladılmış, dinc əhali olan maşın karvanına qarşı terror aksiyası keçirilmiş, nəticədə 14 nəfər qətlə yetirilmiş, 35 nəfər yaralanmışdır.

13 aprel 1994-cü il. Dağıstan Respublikasının "Daqestanskiye Oqni" stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

3 iyul 1994-cü il. Bakı metropolitenin "28 May" və "Gənclik" stansiyaları arasında elektrik qatarındakı partlayış nəticəsində 13 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

Bunlardan əlavə ölkəmizdə erməni vandalları tərəfindən Gəncə və Bərdə terrorları da törədilib. Gəncə bombalanmaları və ya Gəncəyə raket hücumları 2020-ci ilin oktyabr ayında Azərbaycanın Gəncə şəhərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən 5 dəfə ayrı-ayrı zamanlarda baş verib. İlk hücum 4 oktyabrda, ikinci raket hücumu isə 5 oktyabrda olub. Mülki şəxslərə raket hücumlarından həyatını itirənlər və yaralananlar arasında azyaşlılar üstünlük təşkil edib.

Vərdənin bombalanması isə Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən 2020-ci il oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndinə, oktyabrın 28-də isə Bərdə şəhərinə olan raket hücumları baş verib. Bərdə hücumları nəticəsində 27 nəfər öldü, 70 nəfərdən artıq insan yaralandı.

SİA dünyada və Azərbaycanda baş verən terror hadisələri ilə bağlı araşdırma apararaq din xadimi və deputatların fikirlərini öyrənib.



**Din xadimi Mircəfər Əyyubov:** "İslamda terror yoxdur. İslamda ümumiyyətlə namərdlik qəti şəkildə rədd edilir. Əksinə, tarix boyu məhz müsəlman liderlər terrora məruz qalmışır.

Elə Qədr gecəsi terror ilə şəhid edilmiş Əli əleyhissəlam bir nümunədir. İslamda fiziki terror, fərdi terror, kütləvi terror, mənəvi və mədəni terror- bunların hamısı qadağandır. Bu gün dünyanın müxtəlif ölkələri işğal olunur, işğala məruz qalmış xalqın nümayəndələri mübarizə aparanda isə adını terror qoyur, bunu mediyada təbliğ edirlər. Biz terroru haqq uğrunda mübarizədən ayırmalıyıq.

Şəhid Mübariz ermənilərə görə terrorçu idi, amma əslində müqəddəs bir mübarizə edərək şəhid olan bir qəhrəmandır. Bunları fərqləndirə bilməmək cəhalətdir".



**JEM sədri Ceyhun Musaoğlu:** "Dünyada terror hadisələrinin tarixi çox qədimdir. Bu hadisələr heç vaxt özbaşına baş verməyib. Bunu həmişə kimlərsə təşkil edir. Terror hadisələrinin arxasında əsasən böyük siyasi qrup və dövlətlər dayanır. Terror təşkilatlarını yaradan isə Qərb dövlətləri olub. Daha doğrusu Amerikadır. Bunu isə İslamı gözdən salmaq üçün edir. Bu işləri də xüsusən xristianlar qurur. Talek necə gətibsə ilahi ədalət baş verib. İndi isə xristianlar özləri terrorla üzləşərək biri-birini qırırlar. Dünya özü-özünün qurduğu terror hadisələrinin toruna düşüb. Bunun qarşısını almağın yolu yoxdur. Bu yolun nümunəvi həllini Azərbaycan göstərdi. Azərbaycan birləşərək ermənilərə qalib gəldi. Terrorun kökü tam kəsilməsə də Azərbaycan gücünü göstərə bildi. Bu gün hansısa terror hadisəsi baş versə belə Azərbaycan tərəfindən adekvat cavab ala bilir. Dünən terroru yaradanlar bu gün qurbana çevrilib".



**Deputat Müşfiq Cəfərov:** "Ümumiyyətlə, terrorlar tarixən də olub. İndi isə bunu bəşəriyyətə, insaniyyətə, yaşından asılı olmayaraq dinc əhaliyə qarşı terror törətdilər. Son 44 günlük müharibəni götürsək, bu dinc əhaliyə qarşı bir terror idi. Daha sonra müəyyən bir vaxt verildi ki, (10 noyabr razılaşması) bu vaxt çərçivəsində onlar o əraziləri tərk etməli idilər. O əraziləri tərk etməzdən öncə ekoloji terrorlar törədilir, meşələr yandırılırdı, hətta ağacın yenidən özünə gəlməsin deyə ağacın dibinə neft, salyarka tökərək məhv edirdilər. Evləri yandırırdılar. Bir sözlə, ekoloji terrorlar törədirdilər.

Ermənilər tərəfindən müxtəlif cür terrorlar törədilib. Biz bunu hər zaman ictimaiyyətə olduğu kimi çatdırmışıq. Təəssüf ki, ermənilərlə biz qonşu olmuşuq. Yəni, belə bir pis niyyətli, bədnam qonşularımız var. Ancaq hər zaman o terrorlardan özümüzü qorumalıyıq. Biz çalışmalıyıq ki, bu cür hallar təkrar baş verməsin, bizə qarşı bu cür hadisələr törədilməsin. Bunun üçün də güclü olmalıyıq. Həmçinin, müdafiəmiz, hərbimiz, iqtisadiyyatımız, təhsilimiz, sosial həyatımız, yəni, hər cəhətdən güclü olmalıyıq ki, həm özümüzü qorumuş olaq, həm də özümüzü regionda güclü bir ölkə kimi təqdim edərək artıq bu cür hadisələrə imkan verməyək.

Ümumiyyətlə, terror hadisələri ilə bağlı bütün dünya ölkələri mübarizə aparır. Lakin bəzi ölkələrdə bu hadisələrə tez-tez rast gəlinir. Elə ölkələr var ki, ümumiyyətlə heç o hadisələrlə rastlaşmır, ancaq ümumilikdə bütün bəşəriyyət və dünya terrorla hər zaman mübarizə aparır".



**Deputat Ülviyyə Həmzəyeva:** "Böyük Ermənistan" yaratmağı, Türkiyə və Azərbaycana qarşı mübarizə aparmağı əsas məqsəd kimi bəyan edən ermənilər və erməni terror təşkilatları, həqiqətdə bütün bəşəriyyətə qarşı cinayətlər törətmiş və törətməkdə davam edirlər. Belə ki, Azərbaycan xalqı son 200 il ərzində erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırım və təcavüzkar siyasətinə məruz qalaraq, öz tarixi torpaqlarından didərgin salınmış, qaçqın və məcburi köçkünə çevrilmişlər. Ermənistanın ərazi iddiası nəticəsində havadarlarının köməyi ilə, Dağlıq Qarabağ bölgəsinin və ona bitişik 7 rayonun ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi, bütün dövrlərdə olduğu kimi erməni terrorçularına xas olan olan kütləvi qırğınlarla müşayiət olunmuşdur. Belə ki, 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 20 000 nəfər azərbaycanlı həlak olmuş, 100 000 nəfərdən çoxu yaralanmış, 50 000 nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur. Bu, terrorun daha dəhşətli forması olan soyqırımdır. Təkcə XX əsrdə ermənilər Azərbaycan xalqına qarşı iki dəhşətli soyqırım törətmişdir. 1918-ci il mart soyqırımı və 1992-ci il Xocalı soyqırımı erməni vəhşiliyinin bariz sübutudur. Bu soyqırımlar zamanı erməni terroristlərinin minlərlə günahsız uşaqları, qadınları və yaşlı insanları öldürməsi təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı dəhşətli bir cinayətdir. İlk dəfə 1998-ci ildə ümummilli liderimiz Heydər Əliyevin mart soyqırımına hüquqi qiymət verməsi ilə bu vəhşiliklər bütün dünyaya nümayiş etdirilmiş, hər kəs erməni terrorunun dəhşətli miqyasını görmüşdür. Hazırda da Azərbaycanın yeritdiyi uğurlu siyasət nəticəsində Xocalı soyqırımını tanıyan və erməni terrorunu pisləyən dövlətlərin sayı ildən-ilə artır. Lakin ermənilər hələ də, gizli vasitələrlə də olsa, öz terror əməllərindən əl çəkmirlər. Onlar, lazım olduqda digər millətlərə qarşı da terror aktları törətməkdən çəkinmir, öz çirkin məqsədlərinə çatmaq naminə minlərlə günahsız insanın ölümünə bais olurlar. Lakin gec, ya da tez, bütün terror əməlləri kimi, erməni terroru da öz cəzasını tapacaqdır".

***Ayşən Vəli***

# "Buna əməl etməyən şəxs rüşvətxor məmur qədər



**Təhsil eksperti Kamran Əsədovun SİA-ya verdiyi müsahibəsini təqdim edirik:**

**- Vahid məktəbli forması vacibdirmi? Bunun şərt olması nə dərəcədə düzgündür?**

- Bu məsələ ciddi müzakirə predmetinə çevrilib. Sovetlər dönəmində Azərbaycanda vahid məktəbli formasından istifadə olunurdu. Müstəqillik dövründə baş verən proseslər insanlar tərəfindən vahid formanın istifadəsini məhdudlaşdırdı. Azərbaycanda vahid məktəbli forması 2009-cu ildə qəbul edilmiş "Təhsil haqqında" qanunda, 2011-ci ildə qəbul edilmiş Orta ümumtəhsil məktəblərinin nümunəvi nizamnaməsində ilk dəfə olaraq irəli sürüldü. Bunun əsas məqsədi o idi ki, insanlar arasında sosial bərabərlik baş versin. Həmçinin, şagirdin və tələbələrin diqqətini yayındıran proseslər baş verməsin. Etiraf edək ki, şagirdlərin geyimi müəyyən qədər tədrisin gedişatına öz mənfi təsirini göstərir. Lakin mövcud qanunvericilik deyir ki, birmənalı şəkildə məktəbli formasından istifadə olunmalıdır. Bu əslində məcburi deyil, tövsiyyə xarakterlidir. Amma hər bir məktəbin daxili nizam-intizam qaydalarına əsaslanaraq şagirdlərin vahid formada məktəbə gəlməsi vacib tələb olaraq ortaya qoyula bilər. Bu kiminsə azadlığının məhdudlaşdırılması anlamına gəlməməlidir.

Qeyd edim ki, ölkənin 4432 orta ümumtəhsil məktəbində 1,6 milyon şagird var. Təsəvvür edin ki, onların hər biri müxtəlif geyimdən istifadə etsə bura məktəbdən çox başqa ictimai iaşə obyektinə bənzəyər. Xüsusən yuxarı siniflərdə sərbəst geyimə icazə versək, bu tədrisin gedişatına öz mənfi təsirini göstərəcək. Vahid forma tələb edən direktorlar bilməlidir ki, sizin şagirdlərinizin heç də hamısı sizin kimi zəngin deyil. Onlar bir məktəbli formasını 2-3 il geyinirlər. Daha sonra bacı-qardaşlarına ötürürlər. Ona görə də anlayışla yanaşmaq lazımdır. Hamının maddi imakanı eyni deyil. Bir uşağın üzrlü səbəbdən vahid məktəbli forması geyinməməsi həmin məktəbin nizam-intizam qaydalarını poza bilməz. Lakin kütləvi hal alarsa bu problemdir. Əziz direktorlar, sizin oturduğunuz kreslo daimi və davamlı deyil. Bir baxın ki, o kresloya nə qədər insan gəlib-gedib.

**- Hər üç ildən bir formalar dəyişdirilməlidirmi?**

- İlk öncə yeni formaya niyə keçildiyini qeyd edim. İndiki formalar ona görə narahatdır ki, bizim öz məhsulumuz deyil. Bu o demək deyil ki, forma 3 ildən bir dəyişilməlidir. Dəyişə bilər, lakin bu da məktəbin pedoqoji şurasının qərarı ilə əsaslandırılacaq. İlk dəfə olaraq Azərbaycanda 1,6 milyon şagird üçün yay və qış vahid geyimi tətbiq edilir. Bu o deməkdir ki, valideyn ən azı iki geyim alacaq.

**- Məktəblərdə ciddi problemlərdən biri də kişi müəllimlərin az olması ilə bağlıdır. Bu nədən qaynaqlanır?**

- Hal-hazırda ölkənin orta ümumtəhsil məktəblərində 151 min müəllim var. Dəhşətlisi odur ki, onlardan 81 faizi qadın, 19 faizi isə kişi müəllimlərdir. Digər bir dəhşət isə həmin o kişi müəllimlərin 60 faizə qədərinin yaşı 50-dən çoxdur. Hazırda müəllimlərin aldığı əmək haqqı ailə başçısı kimi onların ailə dolandırması üçün uyğun deyil. Bir insan 18 saat işləyib ayda 500 manat alsa da bu onun kommunal xərclərini ancaq ödəyəcək. Bu insan nəqliyyat vasitəsindən də istifadə edir. Müəllimləri kommunal xərclərdən azad etməliyik ki, aldığı əmək haqqı ona çatsın. Həmçinin, müəyyən saatlarda da nəqliyyat xərclərindən azad edilməlidir. Dərs yükü də 18 saatdan 12 saata düşməlidir. Müəllimlərə ciddi güzəştlər olunmalıdır. Bu günləri gənc oğlanlar müəllim olmaq istəmirlər. Çünki onların təminatları yoxdur. Biz onlara güzəştli şərtlərlə mənzil verməliyik.

**- Kurikulumun təhsilə təsiri nə dərəcədə təsiri var?**

- Kurikulum qeyri-adi bir şey deyil. Bu təhsil sənətidir. Sadəcə olaraq bizim müəllimlərimiz yeni təhsil metoduna hazırlaşmırlar. Kurikulum yeni təhsil metodudur. Müəllim kurikulm istəmirsə, deməli dərs olmasın? Kurikulum problemi o oldu ki, biz yeni təhsil standartlarına birdən-birə keçid etdik. Əvvəla bizim dərsliklərimiz ona uyğun deyildi. Kurikulum standartları ilə dərs keçmək üçün müəllimə ən azı 1500 manat maaş verilməlidir. Onun bu dərsi keçmək üçün hər bir şəraiti təmin edilməlidir. Bu halda müəllimlər də bir dəfə partanı birləşdirib bir dəfə ayırıb kurikulum adı ilə dərs keçirlər.

**- Məktəblərdə pul verilməyən sinif niyə təmizlənmir?**

- Nazirlər Kabinetinin 2011-ci ildəki 171 saylı qərarına əsasən hər bir təhsil müəssisəsinin əsas tələb olaraq ortaya qoyulur. Bu digər qanunvericilik aktlarında da öz əksini tapır. Əgər məktəbdə təmizlik işçisi və ya direktor müavini öz vəzifəsini yeirnə yetirmirsə bu tərbiyəsizlikdir. Sizin əməkhaqqınız sizi qane etməyə bilər. Amma əməkhaqqınızın azlığı şagirdin günahı deyil. Siz bu işə qəbul olanda əməkhaqqını da, öhtəliyinizi də bilirdiniz. Qanunvericiliyə əsasən hər gün tədris prosesi başlayana qədər məktəbin təmizliyinə cavabdeh şəxslər təhsil müəssisəini tam təmiz hala gətirməlidir. Buna əməl etməyən şəxs rüşvətxor məmur qədər əxlaqsızdır".

***Ayşən Vəli***

# "Ermənistanın xülyası sivil nə varsa məhv etməkdir"

***Cənab Prezident işğaldan azad edilmiş ərazilərlə bağlı görəcəyi möhtəşəm planları açıqladı. Bu planların mərkəzində həmin torpaqların minalardan təmizlənməsi, infrastrukturun bərpa edilməsi, yaşayış məskənlərinin salınması və nəticədə oranın tarixi sakinləri olan məcburi köçkünlərin öz dədə-baba torpaqlarına qayıtması dayanır". Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Mirzəzadə deyib.***



Onun sözlərinə görə, bu məsələlər barəsində cənab Prezident dəfələrlə, o cümlədən Vətən müharibəsindən əvvəl də gələcəyə yönələn planlar haqqında söyləmişdi: "Bu gün beynəlxalq konfransda Azərbaycan öz məramını ortaya qoydu. Əsas məsələ isə odur ki, Azərbaycan təkcə deklarasiya etmir, həm də onu real şəkildə həyata keçirir. Ermənistan 30 il ərzində həmin torpaqları viran qoydu və tamamilə infrastrukturu, yaşayış məskənlərini məhv etdi. Ermənistanın xülyası sivil nə varsa məhv etməkdir. Azərbaycan isə ondan fərqli olaraq, sivilizasiya yaratmağı, insanların rahat yaşayışını təmin etməyi və dövlətin öz vətəndaşı üçün qayğısını ortaya qoydu".

Deputat sözlərinə belə davam edib: "İl yarım ərzində azad olunmuş ərazilərdə çox böyük işlər görülüb. Həmçinin, torpaqlarımızın əhəmiyyətli hissəsi minalardan təmizlənib. Bu asan məsələ deyil. Rusiya iqtisadçılarının hesablamalarına görə, Ermənistan işğal etdiyi ərazilərə təqribən 400 milyon dollarlıq mina basdırıb. Bunun təmizlənməsi isə böyük vəsait və vaxt tələb edir.

Bərpa ediləcək şəhərlərin baş planı artıq təstiq edilir. Zəngilanın Ağalı kəndinin sakinləri az bir zamanda geri qayıdacaqlar. Şuşa isə Azərbyacanın qürur və milli kimlik məsələsidir. Şuşada aparılan işlərə bütün Azərbaycan ictimaiyyəti şahiddir. Şuşa nəinki Azərbaycanın, həmçinin dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək. Dövlət Başçımız həmişə görülən və görüləcək işlər barədə ictimaiyyəti məlumatlandırır. Hər kəs, sanki quruculuq işlərinin bir başa canlı iştirakçısı olur".

***Ayşən Vəli***

# ADNA-da törədilən faciədən 13 il ötür



***Müasir dünya inkişaf edir, müasirləşir. Bu o deməkdir ki, insanların düşüncəsi də artıq dar çərçivədə deyil, sivil dünyanın insanı olaraq daha genişdir. Bu gün baş verən hadisələrə, cəmiyyətə yanaşma da fərqlidir. Bəşər sivilizasiyasının yüksək nöqtəsində ağıl və idrakın sivil bir nöqtəyə yüksəldiyi zamanda insana sui-qəsdin edilməsi, düşünülmüş terrorun törədilməsi əlbəttə ki, heç bir məntiqə sığa bilməz.***

Dünya inkişaf etsə də bu gün ağıla sığmayan terrorların, faciələrin baş verdiyinin şahidi oluruq. Nə qədər müasirləşsək belə insan qanının tökülməsinə susayan, bunu törətməkdən usanmayanlarla hələ də bir zamanda yaşayırıq. İnsanlıq əleyhinə çevrilmiş terrorların günahsız qurbanları olanların faciəli ölümlər hər kəsdə bir nifrət, qəzəb hissini oyadır. Qeyri-qanuni zorun, gücün, hədənin tətbiq olunması insanlığa qarşı əməldir.

Azərbaycan Dövlət Neft Akademiyasında (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) 30 aprel, 2009-cu il tarixində baş vermiş faciənin törədildiyi gündən 13 il ötür. Həmin günü o zamanı yaşayan insanlar olduğu kimi yaxşı xatırlayır. Səhər saatlarında 9:30 radələrində keçmiş Azərbaycan Dövlət Neft Akademiyasının Bakı şəhəri Dilarə Əliyeva küçəsində qaz-neft mədən və neft mexanikası fakültələrinin yerləşdiyi ikinci korpusuna daxil olan cinayətkarın birinci mərtəbədən altıncı mərtəbəyədək qarşısına çıxan şəxslərə "Makarov" tipli tapançadan atəş açması nəticəsində 12 nəfər həlak olub, 13 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Gülləyə tuş gələnlər arasında təhsil ocağının professorları, müəllimləri, laborantları və tələbələri olublar. Yaralıların 3-ü xarici vətəndaşı idi: ikisi Sudan, biri isə Suriya. Hadisə yerinə dərhal polisin xüsusi təyinatlı nizami hissəsinin, ərazi polis və prokurorluq orqanlarının məsul əməkdaşları gəliblər. Polis tərəfindən zərərsizləşdiriləcəyini görən silahlı cinayətkar özünü öldürüb. Cinayəti törətmiş 1980-ci il təvəllüdlü Gürcüstan vətəndaşı Qədirov Fərda Əsəd oğlunun üstündən ona məxsus şəxsiyyət vəsiqəsi, "Makarov" tipli tapança, habelə hər biri 40 güllə tutumlu və içərisində 71 güllə olan xüsusi üsulla hazırlanmış 3 patrondaş, 2 tapança sandıqçası aşkarlanaraq götürülüb. Cinayət işi üzrə təqsirli bilinən dörd nəfər də layiqli cəzalarını alıblar.

Aprelin 30-da Dövlət Neft Akademiyasında baş vermiş faciəli hadisə nəticəsində həlak olanların ailələrinə və ağır xəsarət alanlara maddi yardım ayrılması haqqında Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan prezidentinin ehtiyat fondundan həlak olanların ailələrinə 30 min manat, ağır xəsarət alanlara isə 15 min manat birdəfəlik maddi yardım ayrıldı.

13 il əvvəl baş vermiş dəhşətli terror hadisə hər kəsin qəlbində dərin iz buraxıb. Belə terror aktları neçə-neçə insan ömrünü yarımçıq qoyur. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində faciə qurbanlarının xatirəsinə barelyef qoyulub. Hər il 30 aprel terror qurbanlarının xatirəsi yad edilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Gözəl niyyətlər və xeyirxah əməllər rəmzi - Ramazan bayramı



*Şəfqət və mərhəmət dolu, on bir ayın sultanı Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır. Bu ay İslam dünyasında ən müqəddəs ay hesab olunur. Oruc tutmaqla insanlar iradə qüvvələrini, dözümlüyünü, təmiz olduqlarını da göstərə bilirlər. Müsəlmanlar bu ayda Allah və din qarşısında borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanır, orucluğun sınaqlarından alnıaçıq çıxaraq yüksək əhvali-ruhiyyə ilə bayramı qeyd edirlər.*

Şərh

Ramazan ayında oruc tutulması müsəlmanlara hicrətin ikinci (622-ci il) ili təyin edilmişdir. Ramazan ayı insanlara Allahı sevmək prinsiplərini öyrədir, onlara öz iradə qüvvələrini, dözümlüyünü yoxlamaq imkanı verir, onları gözüaçıq, təmiz vicdanlı olmağa yönəldir və oruc tutmaqla ifadə olunur. Oruc Ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər.

Azərbaycan müstəqillik qazandıqdan sonra dövlətimizdə Azərbaycan xalqının milli və dini mərasimləri, bayramları hər il dövlət səviyyəsində qeyd olunur. Bildiyimiz kimi, bu il aprelin 02-dən orucluq ayı başlanıldı. Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının hesablamalarına görə, bu il üfüqümüzdə hilalın (təzə Ayın) aprelin 1-i görünməsi Ramazan ayının 1-i miladi təqvimlə 2022-ci il aprelin 2-nə təsadüf etmiş oldu. İnsanlar həmin zamandan oruc tutmağa başladılır. Ramazan ayı insanlara doğru yol göstərən, doğru yolu və haqqı batildən ayırmağı açıq-aşkar dəlillərlə bəyan edən Quranın nazil olduğu aydır. Oruc tutmaqla inanclı insanlar mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşayırlar. İslamda ilin ayları arasında ən şəfaqətli və ən müqəddəs ay hesab edilən Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır ki, Azərbaycan xalqı da bu ay ərizində əmin-amanlıq, qardaşlıq kimi dəyərləri nümayiş etdirmiş oldular. Mənəviyyat və əxlaqın zənginləşməsində oruc ibadəti insanın daxili saflığına, pis vərdişlərdən uzaq durmasına, Allah yolunda xeyirxah işlər görməsinə, fiziki və mənəvi cəhətdən sağlam olmasına səbəb olur. Mərhəmət və şəfqət ayı olan müqəddəs Ramazan ayı ərzində iftar süfrələri açıldı, ehtiyacı olanlara, kimsəsiz insanlara, ahıl və qocalara imkan daxilində köməklik göstərildi.

Ramazan bayramının məqsədlərindən biri də müsəlmanların toplanması və görüşməsidir. Müsəlmanlar bayramda görüşür, bir yerdə namaz qılırlar. Bayramın başqa məqsədlərindən də, müsəlmanların bir-birini ziyarət etməsi, qohum-əqrabalarla görüşməsi, əgər arada inciklik varsa barışması üçündür.

Əlbəttə ki, gözəl əməl və gözəl niyyət insanı ülviləşdirir, onu ucaldır. Müsəlmanlar bu ayda Allah və din qarşısında borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanmış oldular. İslam və onun mahiyyətindən irəli gələn sülhpərvərlik, dözümlülük, bərabərlik, qardaşlıq və bu kimi dəyərlər Azərbaycanda tolerantlıq mühitinin, cəmiyyətdə vəhdət və harmoniyanın yaranmasında, multikulturalizm və humanizm ideyalarının bərqərar olmasında müstəsna rol oynayıb. Müxtəlif dini mənsubiyyətə malik insanların cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss etməsi də Azərbaycanda tolerantlıq mühitinin əsas göstəricisidir. Dövlət başçısı mütəmadi olaraq din xadimləri ilə görüşür, dini konfessiyalara maddi yardımlar edilir, dini ibadət yerləri təmir-bərpa olunub inanclı insanların istifadəsinə verilir. Bu gün ölkəmizdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Azərbaycan Prezidentinin məlum Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılıb. Ölkəmizdə dövlətin dəstəyi ilə sinaqoqlar, məscidlər, kilsələr tikilib, bərpa olunub və bu, davam etməkdədir. Bu gün Azərbaycanda bütün dinlərin nümayəndələri mehribanlıq şəraitində yaşayır və hüquqları tam təmin edilir, müqəddəs hesab olunan milli-dini bayramların keçirilməsinə yüksək şərait yaradılıb.

Hikmətlər xəzinəsi "Qurani-Kərim"in nazil olduğu mübarək Ramazan bayramı da ölkəmizdə böyük sevinclə qeyd edilir. Xalqımız artıq ikinci ildir ki, Ramazan ayına qalib xalq, Vətən və şəhadət eşqi sayəsində 30 illik işğala son qoymuş millət kimi qədəm qoyur. Yaxın zamanlarda əzəli torpaqlarımıza dönəcək bu məkanın sakinləri öz ocaqlarında, evlərində oruc tutub, namaz qılıb, Allaha duaların edəcəklər. Bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur.

Qeyd edək ki, oruc ibadətinin mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günüdür. Fitrə canın sədəqəsidir və imkanı olan müsəlmanın ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarması, imkansızlara, ehtiyacı olan ailələrə verməsi vacibdir.

Allah oruc və namazlarımızı qəbul etsin!

Ramazan bayramınız mübarək!

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq"



***"22-23 aprel 2022-ci il tarixlərində Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı keçirildi. Iki gün davam edən Qurultayda dünyanın 65 ölkəsindən 400 nəfərə yaxın diaspor nümayəndəsi iştirak etmişdir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Rauf Əliyev bildirib.***

Onun sözlərinə görə, qurultayın azad olunmuş torpaqlarımızda aparılan geniş miqyaslı bərpa-quruculuq dövrünə təsadüf etməsi, xüsusən Azərbaycanın mədəniyyət paytaxtı hesab olunan Şuşada keçirilməsi barədə qərarın tarixi əhəmiyyəti və rəmzi mənası var: "Bu mənada, Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı Zəfər Qurultayı kimi tarixə düşəcək. Bu tarixi reallıq müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin hərtərəfli düşünülmüş və qətiyyətli siyasətinin nəticəsidir. Cənab Prezident Qurultayın işində iştirak edib və çıxış edib. Cənab Prezident çıxışı zmanı bir- çox mühüm məsələlər barədə fikir söyləyib




Cənab Prezident çıxışında qeyd edib ki, "Azərbaycan xalqı 30 il davam edən mənasız danışıqlar əvəzinə öz gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi. Bütün dünyaya sübut etdi ki, biz böyük xalqıq və Azərbaycan xalqı heç vaxt işğalla barışmaq fikirində deyildi". Azərbaycanda həyata keçirilən siyasətin,atılan bütün addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq dayanırdı. Azərbaycan buna öz gücü ilə nail oldu.Tarixi missiyanı həyata keçirən qəhrəman Azərbaycan oğulları tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillikdövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər.

Cənab Prezident xaricdə yaşayan Azərbaycanlıların qazanılmış Tarixi Qələbədəki rolunu qeyd edərək ki, həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, həm də dünya azərbaycanlıları bir nöqtəyə vururdular, bir hədəfə çatmaq üçün çalışırdılar.Hər kəs hər gün öz əməyində, işində, hərə öz yerində bu Qələbə gününü yaxınlaşdırdı.

Xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarının Diaspor işləri üzrə Dövlət Komitəsi ilə əlaqələrinə toxunan cənab Prezident qeyd etmişdir ki, bu əlaqələr getdikcə təkmilləşir. Azərbaycan da yaşayan azərbaycanlılar istəyir ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi vətəni ilə sıx bağlı olsunlar. Xaricdə yaşayan gənc azərbaycanlılar nəm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidirlər, həm də bu həqiqətləri öx dostlarına çatdırmalıdırlar.

Şuşada keçirilən Qurultayın çox böyük tarixi məna daşıdığını qeyd edən cənab Prezident bildirmişdir ki, "Bu gün Azərbaycan yeni dövrə qədəm qoyub. Biz 30 il işğal edilmiş ölkə kimi yaşamışıq. Bu, bizim üçün çox ağır idi-mənim üçün Prezident kimi, hər bir vətəndaş üçün-xaricdə yaşayan azərbaycanlılar üçün". Ancaq bu gün vəziyyətin tam fərqli olduğunu vurğulayan cənab Prezident deyib: "Bu gün alnımız açıqdır,bu gü üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpaqlarımızdayıq. Bu torpaqda möhkəm dayanməşıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz".

***Banuçiçək Hüseynli***

# Mayın 1-dən İtaliyada vaksin sertifikatı tələbi ləğv olunacaq

***COVID-19 epidemiyasına qarşı tədbirlər çərçivəsində mayın 1-dən etibarən İtaliya daxilində vaksin sertifikatı - "Yaşıl keçid kartı" ("Green pass") tələbi ləğv ediləcək.***




Belə ki, İtaliyanın səhiyyə naziri Roberto Speranza tərəfindən imzalanan müvafiq qərara əsasən, hətta peyvənd olunmayanlar belə iş yerinə qayıda biləcək və onlardan nəticəsi mənfi olan test tələb edilməyəcək. Peyvənd öhdəliyi 2022-ci il dekabrın 31-dək səhiyyə işçiləri üçün qüvvədə olacaq. Yaşı 50-dən yuxarı olanlar, hüquq-mühafizə orqanları və təhsil işçiləri üçün peyvənd öhdəliyi isə iyunun 15-dək qüvvədə qalır. Bu kateqoriyadan olanlar vaksinasiyadan keçmədikləri halda 100 avro cərimə olunacaqlar.

Səhiyyə orqanları tərəfindən xarici ölkələrdən gələnlərdən tələb olunan Sərnişin Yerləşdirmə Forması (Passenger Locator Form) mayın 31-dək qüvvədə qalacaq.

## "Tiktok"da dilənçilik edənlər cəmiyyətdə aşağılayıcı bir ortam yaradır




***Sosial şəbəkələr müasir dövrümüzün hər sahəsinə nüfuz etmişdir. Bunun bir çox müsbət tərəfləri ilə yanaşı mənfi tərəfləri də var. Son zamanlar "Tiktok" platformasında nəinki sadə insanlar həmçinin tanınmış şəxslər də canlı yayım açaraq bundan asan yolla pul qazanmağa çalışırlar. Daha doğrusu sosial şəbəkələrdə dilənirlər. Cəmiyyətdəki yerlərini unudaraq, öz ad sanlarını unudaraq dilənçilik edirlər.***



Məsələ ilə bağlı SİA-ya açıqlama verən **JEM sədri Ceyhun Musaoğlu** bildirib ki, sosial şəbəkələrdə xüsusən də "Tiktok"da canlı yayım açıb dilənçilik edənlər cəmiyyətdə aşağılayıcı bir ortam yaradır: "Sözün əsl mənasında bunu müasir dilənçilik adlandırmaq olar. Hətta küçədə dilənən adamlar belə insana yaxınlaşanda bəzən utanırlar, boyunlarını bükürlər. Tiktokda isə məşhur adamlar, tanınmış şəxslər, aktrisalar özlərini çox biabrçı hala salırlar. İzləyiciyə yalvarırlar, onların hər dediyini edirlər ki, izləyicilər onlara hədiyyə göndərsin, "sandıq", "şir" göndərsin. Onlar nə edirlər ki, hələ izləyicidən də hədiyyə istəyirlər. Baxırsan ki, tanınmış aktyordu, amma dilənir. "Xahiş edirəm göndərin" kimi sözlər işlədirlər. Bu platformadan insanları maraqlandıran, maarifləndirən məlumatlar üçün istifadə etmək əvəzinə, tamaşa göstərmək, şeir söyləmək, ictimaiyyəti maraqlandıran məsələlərlə bağlı fikir mübadiləsi aparmaq əvəzinə boş-boş söhbət edirlər. Ancaq yalvarırlar ki, "jeton" göndərsinlər. Pula görə bu qədər alçalmaq olarmı? Həmin şəxslər sənət adamıdırlar. Gərək insanın daxili məni olsun, mədəniyyəti olsun. 5-10 manata görə, adam özünü yerdən-yerə vurar? Belə çıxır ki, insanlar pula görə hər şeylərindən keçsinlər. Çox acınacaqlı vəziyyətdir. Kəskin şəkildə qınayıram. Bu tendensiyanın tezliklə dayandırılmasını istəyirəm. Həqiqətən də ayıbdır".



"İnsan hüquqları komitəsi ilə hüquq siyasəti və dövlət quruculuğu komitəsi birgə insan alveri üzrə Milli Koordinatorun Milli Məclisə olan məlumatı müzakirə edildi". Bu fikirləri **Milli Məclisin deputatı Tahir Kərimli** bildirib.

Onun sözlərinə görə, internet sahəsində kiber hücumların artması, qadın və uşaq alveri, müasir tendensiyaların artıq qloballaşması, internetləşməsi məsələləri müzakirə olundu: "Sosial şəbəkələr üzərində bu istiqamətdə bir çox məsələlər həll olunur. Dilənçilik ciddi bir problemdir. İnsan alveri məvhumuna daxildir və Azərbaycanda qaraçıların ənənəvi fəaliyyətinə daxildir. Ancaq bu qanuna ziddir. Ciddi mübarizə aparılır. Təbii ki, "tiktok"da və ya digər şəbəkələrdə canlı açıb pul dilənməyin özü də insan istismarının tərkib hissəsidir. Yəni zəhmətsiz gəlir olmadan, bir növ qanundan kənar, vergisi olmayan pulu qazanırlar. Deməzdim bunu ağır həyat tərzi məcbur edir. Bir çox insan asan yolla, qanundan kənar pul qazanmaq üçün bu yollara əl atır. Həmçinin övladlarını da buna cəlb edirlər. Şübhəsiz ki, bunun haqqında ciddi mənəvi senzura tətbiq edilməlidir. Demirəm ki, digər parapetrlər üzrə məhdudiyyətlər qoyulsun. Sadəcə mənəvi sahədə mütləq məhdudiyyətlər tətbiq olunmalıdır".

***Abutel İlhamqızı***

# "Şuşa regionun diplomatik paytaxtına çevrilir"



"Qarabağın tacı, işğaldan azad edilməsi ilə bir dastan yazan, Azərbaycanın, Türk dünyasının mədəniyyət paytaxtı, dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük İkinci Qarabağ müharibəsi dövründə səsləndirdiyi "Şuşasız bizim işimiz yarımçıq olar" fikirləri əsasında hər bir azərbaycanlı üçün önəmi aydın ifadə edilən Şuşa bir ildən artıqdır ki, azaddır. Bu qısa müddətdə mədəniyyət paytaxtımız sürətlə dirçəldilir, qonaqlarını qarşılayaraq işğal dövründə nə qədər sındırılsa da əyilməməsindən, milli qürurumuzu qorumasından fəxr hissi ilə bəhs edir. Bütün bunlarla bir daha Azərbaycanın əzəli torpağı olduğunu dünyaya nümayiş etdirir. 28 illik işğal dövründə Şuşanın ona məxsus olduğunu iddia edən Ermənistan mədəni və dini abidələrimizi yerlə-yeksan etməklə nə qədər tarixi silməyə çalışsa da, bunun mümkünsüzlüyünün fərqində idi. Ən əsası dünya hərb tarixində bənzəri olmayan Şuşa əməliyyatından sonra kapitulyasiya aktına imza atan Ermənistan tarixi silməyin mümkünsüzlüyünü, Azərbaycan xalqının tarixinə sahib çıxan, yenilməz, məğrur xalq olduğunu bir daha dərk etdi. Şuşa bu gün müxtəlif beynəlxalq əhəmiyyətli mədəni tədbirlərə ev sahibliyi, sənədlərin imzalanmasına şahidlik etməklə təkcə Azərbaycanın deyil, bütövlükdə Türk dünyasının mədəniyyət paytaxtı olduğunu sübuta yetirir. Eyni zamanda, böyük fəxr və qürur hissi ilə qeyd edirik ki, Şuşa regionun diplomatik paytaxtına çevrilib. Ötən ilin 15 iyun tarixində - Milli Qurtuluş Günündə iki dost, qardaş ölkələr - Azərbaycan və Türkiyənin müttəfiqliyinin təsdiqi olan Şuşa Bəyannaməsinin imzalanmasına şahidlik edən Şuşa bu ilin martında Azərbaycan-BMT əlaqələrinin 30 illiyinə həsr olunan tədbirə ev sahibliyi etdi. Bunun ardınca aprelin 22-də dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımız Şuşada Zəfər Qurultayına toplaşdılar. Aprelin 28-də isə mədəniyyət paytaxtımız Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və ADA Universitetinin birgə təşkilatçılığı ilə "Cənubi Qafqaz: İnkişaf və Əməkdaşlıq" adlı beynəlxalq foruma ev sahibliyi etdi. Dünyanın 20-dən çox ölkəsindən 50-yə yaxın xarici beyin mərkəzlərinin ekspertlərinin, tədqiqatçı-alimlərinin və media nümayəndələrinin iştirak etdikləri forumun əhəmiyyəti həm müzakirə edilən mövzu, həm keçirildiyi məkan, ən əsası Azərbaycanın hazırda regionda və dünyada roluna aydınlıq gətirməsi baxımından diqqətçəkəndir". Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

Vüqar Rəhimzadə vurğulayıb ki, beynəlxalq forumun iştirakçıları Şuşanın quruculuq və bərpası ilə bağlı "Şuşa - dirçəlişə gedən yol", postmünaqişə dövrünə dair "Əməkdaşlıq, imkanlar və çağırışlar" mövzuları ətrafında müzakirələr apardılar: "Şübhəsiz, 20 ölkəni təmsil edən 50-yə yaxın beyin mərkəzlərinin nümayəndələrinin Şuşada belə aktual mövzuları müzakirə etmələri özündə böyük bir mənanı ehtiva edir. Bu baxımdan ki, hər bir iştirakçı ölkəsinin təmsilçisi olmaqla yanaşı, Azərbaycan həqiqətlərinin də təbliğatçısına çevrilir. Bu mühüm platforma xarici ekspertlərə postmünaqişə dövründə Cənubi Qafqaz ölkələri arasında əlaqələrin inkişafı, kommunikasiyaların açılması imkanlarının nəzərdən keçirilməsi, bölgənin tərəqqisinin, təhlükəsizliyinin və rifahının təməli kimi Azərbaycanın formalaşdırdığı Ermənistanla münasibətlərin normallaşdırılması üçün sülh gündəliyinin müzakirəsi baxımından əlverişli imkan yaradır.

Aprelin 28-də mədəniyyət paytaxtımızda işinə başlayan və aprelin 29-da Bakıda davam edən beynəlxalq forumun ideyası ötən ilin aprelində Prezident İlham Əliyevin iştirakı ilə ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda yaranıb. Həmin konfransda iştirakçılar Qarabağda beynəlxalq Forumun keçirilməsini təklif etmiş və dövlət başçısı İlham Əliyev bu təklifi müsbət qiymətləndirmişdi. Aprelin 29-da ADA Universitetində keçirilən beynəlxalq konfransdakı nitqində Prezident İlham Əliyev bu fikri xüsusi qeyd etdi ki, bu cür ənənəvi görüşlər planlarımızı və məqsədlərimizi, görülən işləri beynəlxalq ictimaiyyətə çatdırmaq baxımından çox əhəmiyyətlidir. Ermənilər tərəfindən 30 ilə yaxın davam edən işğal ərzində bütün şəhərlərimizdə və kəndlərimizdə barbarlıq və vandalizm aktları həyata keçirilib. Bütün şəhər və kəndlərimiz vəhşicəsinə dağıdılıb.

Təbii ki, bu ağrılara, ermənilərin vəhşiliklərinə baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin tarixə qovuşmasından sonra açılan yeni səhifə yeni reallıqları diktə edir. Azərbaycanın bu reallıqların dünyada qəbulu istiqamətində atdığı addımlar və onların uğurlu nəticələri göz önündədir. Sülh gündəliyi günümüzün əsas müzakirə mövzusudur. Bu gündəliyin müəllifi olaraq Azərbaycanın mövqeyi dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir, Azərbaycanla Ermənistanın münasibətlərinin normallaşdırılmasına yönələn səylər təqdir edilir. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə iki dəfə Azərbaycan Prezidentinin və Ermənistanın baş nazirinin Brüsseldə bir araya gəlmələri, sonuncu görüşün nəticələrində ölkəmizin mövqeyinin dəstəklənməsi, Ermənistanın təklif etdiyimiz 5 prinsipi qəbul etməsi ərazi bütövlüyümüzü dəstəkləməsi də deyilənlərin təsdiqidir. Dünyanın aparıcı dövlətlərinin rəsmilərinin Prezident İlham Əliyevə ünvanladıqları məktublarda, etdikləri telefon zənglərində, həmçinin həmin dövlətlərin, təşkilatların nümayəndə heyətlərinin ölkəmizə səfərləri zamanı keçirilən qəbullarda Azərbaycanın dünyaya səs salan tarixi Zəfərinin region və dünya siyasətində yol açdığı dəyişikliklər, yeniliklər xüsusi qeyd olunur. Yeni əməkdaşlıq formatları yaradılır. Zəngəzur dəhlizinin açılması, kommunikasiyaların bərpası, avtomobil və dəmir yollarının çəkilişi, iqtisadi əlaqələrin qurulması məsələlərinin müzakirəsi və sair kimi mühüm məqamlar regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunmasına xidmət edir. Hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərdə öz maliyyəsi hesabına, həmçinin digər aparıcı beynəlxalq təşkilatların dəstəyi ilə genişmiqyaslı infrastruktur layihələri icra edir."

"Qeyd etdiyimiz kimi, Şuşanın BMT və digər nüfuzlu beynəlxalq təşkilatların tədbirlərinin əsas ünvanına, bölgənin diplomatik paytaxtına çevrilməsi bu qədim Azərbaycan şəhərinin saxta məlumatlar əsasında uzun illər erməni şəhəri kimi tanıtdırılması məqsədilə aparılan çirkin kampaniyaların iflası deməkdir" söyləyən YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, dövlət başçısının nitqində qeyd olunduğu kimi, Azərbaycan Qafqazda yeni dövrü - sülh və əməkdaşlıq dövrünü aktiv şəkildə təşviq edir. Qarşıda duran ən mühüm məsələlərdən biri beynəlxalq təşkilatlarla əməkdaşlıq sayəsində yeni reallıqları daha da gücləndirməkdən, regionla bağlı strategiyanı təqdim etməkdən ibarətdir. Söz yox ki, belə tədbirlərin azad Qarabağımızda, azad Şuşamızda keçirilməsi hədəflərə yüksək səviyyədə nail olmağa öz töhfəsini verəcək.

## Dünyaya mənşəyi məlum olmayan yeni virus yayılır

SİA Türkiyənin TRT telekanalına istinadən xəbər verir ki, virus indi də Kanadada aşkarlanıb. Kanada Səhiyyə Agentliyi bununla bağlı bəyanat verib: "Kanada Səhiyyə Agentliyi ölkə gənclər və uşaqlar arasında yayılan, mənşəyi bilinməyən ağır kəskin hepatit virusunun ortaya çıxması hallarından xəbərdardır".



Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, ABŞ, İngiltərə, İspaniya, İsrail, Danimarka, İrlandiya, İtaliya, Norveç, Fransa, Rumıniya, Belçika və Hollandiyada da mənşəyi bilinməyən hepatit aşkarlanıb.

***Son günlər paytaxt ərazisində elektroskuter sürənlərin sayı artıb. Skuterlər şəhəri cənginə alıb desək, yanılmarıq. Sürətlə parkda, yollarda hərəkət edən bu nəqliyyat vasitəsi insanlar və onu idarə edənlər üçün təhlükə yaradır. Türk Ortopediya və Travmatologiya Mütəxəssisi Hakan Turan Çift ciddi ortopedik zədələrin qarşısını almaq üçün qoruyucu vasitələrdən istifadənin vacib olduğunu bildirib.***

# Təhlükə yaradan skuterlərlə bağlı nə etmək lazımdır?







Xüsusilə son illərdə bütün dünyada olduğu kimi ölkəmizdə də artan elektrik skuterlərindən istifadə bəzi riskləri də özü ilə gətirir. Araşdırmalar göstərir ki, elektrikli skuter qəzalarının təxminən yüzdə 50-si ortopedik xəsarətlərlə nəticələnir.

Mütəxəssis qeyd edib ki, elektrikli skuterlər (elektron skuterlər) 2017-ci ildə istifadəyə verildikdən sonra şəhər sakinləri üçün mühüm nəqliyyat vasitəsinə çevrilib. Üstəlik, sıx məskunlaşan şəhərlərdə, xüsusən də qısa məsafələr üçün ictimai nəqliyyata alternativ yaradır və onlar elektriklə işlədiyi üçün havanın çirklənməsinin qarşısını alır.

Xüsusilə böyük şəhərlərdə istifadə nisbətinin artması ilə yaralanma nisbətlərində artım olduğuna diqqət çəkən Hakan Turan Çift, ”Elektrikli skuter qəzalarında ciddi artımlar müşahidə olunur. Bu yaralanmalara daha çox 18-44 yaş arası olan kişilərdə rast gəlinir. Bundan əlavə, istifadə üçün qanunla müəyyən edilmiş minimum yaş həddinin olmaması da qəza baxımından risk yaradır.

### Qoruyucu avadanlıq tələb olunur

Biz görürük ki, skuter qəzası ilə bağlı xəsarətlər çox vaxt çiyin, dirsək və əllər kimi yuxarı ətraflarda, diz oynağının ön çarpaz bağlarında, baş və ya üz nahiyəsində olur. Bununla belə, aşağı ətraflarda omba sınıqları müşahidə olunur. Ən çox qırılan sümük biləkdəki Radius sümüyüdür və gips ilə müalicə oluna bilən bir problemdir. Yaralıların təxminən 80-90 faizi təcili yardımdan evə göndərilir, 10-20 faizi isə əməliyyat üçün xidmət və ya reanimasiya şöbəsinə yerləşdirilir. Ayaq kimi aşağı, qol və əl kimi yuxarı ətrafın sınıqlarından 2 dəfə çox xəstəxanaya yerləşdirilir” deyib.

### Qaydalar lazımdır

Qoruyucu vasitələrdən istifadəyə mütləq təşviq edilməli, bəzi avadanlıqların (dəbilqə, bilək, dirsək və diz qoruyucuları və s.) istifadəsi məcburi olmalıdır. Sürücülərə həm öz təhlükəsizliyi, həm də ekoloji təhlükəsizlik baxımından bəzi hüquqi sanksiyalar tətbiq edilməlidir. Spirtli içki qəbul etdikdən sonra istifadə edilməməlidir, sərnişinlərin sayı yalnız 1 nəfər olmalıdır.

Bəs, təhlükə yaradan skuterlərlə bağlı nə etmək lazımdır? SİA məsələ ilə bağlı ekspertlərin fikirlərini öyrənərək araşdırma edib.

**Nəqliyyat eksperti Elməddin Muradlı:** ”Elektroskuterlərin fəaliyyəti ilə bağlı narahatlıq doğuran hallar var. Son vaxtlar vətəndaşların daha çox maraq göstərdiyi ekoloji təmiz nəqliyyat növlərindən biri olsa da, çox təəssüf ki, insanlar onu düzgün istifadə etmək əvəzinə sanki bir təhlükə mənbəyinə çeviriblər.

Bu baxımdan düşünürəm ki, hər bir nəqliyyat vasitəsi öz təyinatına uyğun istifadə olunmalıdır. Skuterlərin də təyinatı sadəcə insanları rahat şəkildə bir nöqtədən digərinə çatdırmaq üçün nəzərdə tutulub. Bizdə isə təəssüflər olsun ki, bəziləri şou göstərmək üçün istifadə edir. Məsələn, Milli Parkın ərazisində, Tarqovuda, mərkəzi küçələrdə hərəkət etmək olmur. Bir də baxırsınız ki, gəzdiyiniz yerdə bir qrup gənc skuterlə doluşur insanların arasına.

Ona görə də bu istiqamətdə ciddi təbliğat işlərinə ehtiyyac var. Təbliğat böyük bir təsir vasitəsidir. İnsanlar dərk etməlidir ki, bu nəqliyyat növü nə üçündür və harada istifadə olunmalıdır. Belə olan halda irəliləyiş əldə edə bilərik.

Mən skuterlərin artımına qarşı deyiləm. Lakin düzgün istifadə etməmələri narahatlıq doğurur. Sanki ölümə gedərcəsinə avtomobillərin arasına girirlər. Onların əksəriyyəti də gənclərdir və adrenalin çıxarmağa çalışırlar.

Bu istiqamətdə ciddi işlər görülməli və onların da normal hərəkəti üçün şərait yaradılmalıdır. Məsələn, velosiped yolları üçün xüsusi yollar ayrılır və gələcəkdə onları yönləndirməliyik ki, bu yollardan istifadə edə bilsinlər. Rahat və təhlükəsiz imkanlar yaratmaq olar”.



**Yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** ”Ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin, o cümlədən də elektrik skuterlərin son zamanlarda sayının çoxalmasının şahidi oluruq. Bu normal bir haldır. Çünki bütün dünyada olduğu kimi paytaxt Bakıda da ətraf-mühitin qorunmasına xüsusi önəm verilir. Ona görə də bu tipli nəqliyyat vasitələrindən istifadə etmək arzuolunandır və alqışlanmalıdır.

Amma təəssüflər olsun ki, Azərbaycanda hər dəfə olduğu kimi qabaqcıl texnika və təcrübələrdən mənfi istiqamətdə istifadə etmə halları ilə rastlaşırıq. Xüsusən də paytaxt ərazisində elektroskuterlərin onlara qoyulan normalardan aşan sürətlə hərəkət edilməsi, onların təhlükəli şəkildə idarə edilməsi, yaşından asılı olmayaraq istənilən şəxsin bu vasitədən istifadə etməsinə qadağa qoyulmaması halları ilə rastlaşırıq.

Paytaxt küçələri çox dardır və nəqliyyat vasitələrinin sayı həddindən artıq çoxdur. Bizdə iri tutumlu və hündür avtomobillərdən daha çox istifadə olunur. Buna görə də bu kiçik və çevik nəqliyyat vasitəsindən istifadə halları müəyyən problemlər yaradır. Bu baxımdan da motosiklet və skuterlərlə kuryerlik edən şəxslərin təhlükəli idarə etməsi ilə rastlaşırıq. Onlar çox təhlükəli manevrlər edirlər. Bu səbəbdən də tez-tez qəzalar baş verir.

Bakıda dünyada aktual olan velosiped yolları salınır. Düşünürəm ki, bu yolu bir qədər genişləndirib skuterlər üçün də yararlı etmək olar. Az enerji sərf etməklə, insanları istədiyi yerə aparacaq bu cür yeni texnikadan mütləq istifadə etmək lazımdır. Lakin bunlar üçün yol sturukturu yaradılmalıdır.

Yol qanunvericiliyində bu tip nəqliyyat vasitələri ilə bağlı müəyyən aktlar dəqiqləşdirilməlidir. Cəza mexanizmi olmalıdır. Bunların qarşısını almaq çox vacibdir. Çünki əgər almasaq, yaxın gələcəkdə ekologiyanı qorumaq adı ilə insanlarımızın həyatının təhlükə altına alınması ilə üzləşə bilərik”.

Şəhər sakinləri isə skuterlərlə bağlı olan fikirlərini bu cür ifadə edib.

**Şəhər sakini Arzu Rövşən:** ”Əyləncə məqsədi ilə sürülsə də təhlükə yaradır. Çünki həm nəqliyyat vasitələrində çaxnaşmaya, həm də insanların sağlamlığı barəsində mənfi nəticələrə səbəb ola bilər.

Düşünürəm ki, elektroskuter sürənlər üçün çaxnaşma yaradacaq məkanlara cərimə tətbiq olunsun, yaxud ayrıca sahə ayrılsın. Bu insanların təhlükəsizliyi üçün vacib amillərdən biridir”.

**Şəhər sakini Bənövşə Feyziyeva:** ”Onlar təhlükə yaratmır. Məncə onların sürülməsi üçün şərait yaradılsa daha yaxşı olar. Belə də havaya çirkli qaz buraxılmaz və təmiz olar”.

**Şəhər sakini Paşa Məmmədov:** ”Düşünürəm ki, skuterlərin hərəkəti çox narahatlıq yaradır. Çıxırıq dəniz kənarına biraz hava alaq beynimiz dincəlsin. Lakin adamın sanki üstünə çıxırlar. Düşünürəm ki, bu barədə ciddi cəza tədbirləri tətbiq olunmalıdır. Çünki insanlar körpə uşaqları ilə də rahat gəzinti edə bilmir”.

**Şəhər sakini Aliyə Qarayeva:** ”Mən bu nəqliyyat vasitələrindən çox qorxuram və övladıma da icazə vermərəm”.

***Ayşən Vəli***

ARAŞDIRMA

# “Azərbaycanla Ermənistan arasında razılaşma rəsmi Moskvanı narahat edir”

***- Anar müəllim, Ermənistanda geniş kütləvi aksiyalar Paşinyanın hakimiyyətdən getməsi ilə nəticələnə bilərmi? Bu halda regionda yeni müharibənin yaranması ehtimalı varmı?***

- Bəli, Ermənistanda müxalifət hakimiyyəti dəyişmək məqsədi ilə fasiləsiz aksiyalara start verdiklərini bəyan ediblər. Artıq bununla bağlı Yerevan küçələrində kifayət qədər gərgin vəziyyət formalaşıb. Xüsusilə də, keçmiş prezidentlər olan Köçəryan və Sarkisyanın tərəfdarları revanşist düşüncəli insanlar Paşinyanın Azərbaycanla növbəti dəfə Ermənistanı məğlubiyyətə aparacaq razılaşma ərəfəsində olduğunu bəyan edərək cəmiyyətin hakimiyyətə qarşı müqavimətini formalaşdırmağa çalışırlar. Amma Paşinyan və onun komandasının da cəmiyyətə ötürə biləcəyi kifayət qədər əsaslı arqumentləri mövcuddur. Düşünürəm ki, Paşinyanın 6 aprel Brüssel görüşü və 19 aprel Moskva görüşündən sonra səsləndirdiyi müəyyən fərqli və ziddiyyətli fikirlər Ermənistandakı mövcud situasiyanı təhlil etməyə mahiyyətini dərk etməyə kifayət qədər imkan verir.

***- Brüssel görüşündən sonra Azərbaycanla sülh razılaşmasından danışan Paşinyan Moskva görüşü və Putinlə danışıqlardan sonra fərqli mövqe ortaya qoyur. Paşinyanın mövqe dəyişkənliyi Ermənistan cəmiyyətini sakitləşdirmək üçün ifadə olunan mövqe olduğunu demək olar?***

- 6 aprel Brüssel görüşündən sonra parlamentdə Nikol Paşinyanın səsləndirdiyi fikirlər eyni zamanda, hakim partiyanın nümayəndələri ilə keçirdiyi görüşdə səsləndirdiyi fikirlər göstərirdi ki, Nikol Paşinyan artıq Azərbaycanla əməkdaşlığın xüsusilə də, Azərbaycanın irəli sürdüyü 5 təməl prinsipindən ibarət sülh danışıqlarının alternativinin olmadığını və Ermənistanın buna məcbur olduğunu və qəbul etdiyini bəyan etmişdi. Amma Moskva görüşündən sonra Nikol Paşinyanın ritorikasında müəyyən dəyişikliklər özünü göstərməyə başladı, xüsusilə də, yenidən ”Dağlıq Qarabağ” əhalisi və onların təhlükəsizliyi təminatının verilməsi və s bu kimi indiyə qədər ki, müzakirələrdə və imzalanmış bəyanatlarda öz əksini tapmayan absurd fikirlər, ifadələr səsləndirməsi onu göstərir ki, bəli 6 aprel tarixində Brüsseldə keçirilən görüşdə Azərbaycan və Ermənistan arasında mühüm razılıqların əldə olunması müəyyən dairələri xüsusilə, rəsmi Moskvanı ciddi şəkildə narahat edirdi.

***- Sizcə, bu narahatçılıq, əsasən, nədən ibarətdir?***

- Birincisi, əsas narahatçılıq ondan ibarətdir ki, Ermənistanın Azərbaycanla münasibətlərinin tənzimlənməsi başqa platformada, başqa güclərin dominantlığı şəraitində baş verməsi Rusiya üçün Cənubi Qafqaz siyasətində ölüm-qalım dərəcədə əhəmiyyətlidir. Buna görə də, yeni bir platformada Ermənistanla Azərbaycan arasında münasibətlərin tənzimlənməsi istiqamətində addımların atılmasını rəsmi Moskva həzm etmək istəmir. Mümkün qədər Brüssel görüşlərinin nəticələrini sobataj edilməsi və Ermənistan Azərbaycan arasında münasibətlərin məhz Rusiyanın vasitəçiliyi ilə təmin olunmasının mümkün ola biləcəyini qəbul etdirmək və bunu cəmiyyətlərə ötürmək istəyir. Eyni zamanda, burada mühüm məqamlardan biri Avropa institutlarının Cənubi Qafqazda davamlı sülh əldə etməklə Rusiyanın bu bölgədə iştirakçılığını xüsusilə də, hərbi iştirakçılığına olan zərurəti aradan qaldırmaq və Rusiyanın bu bölgədən hərbi iştirakının aradan qaldırılmasına nail olmağa çalışır. Bunu rəsmi Moskvada çox gözəl dərk edir və dərk etdiyi üçün də Ermənistan - Azərbaycan arasında münasibətlərin birmənalı şəkildə və sürətli formada həll olunmasına müəyyən problemlər yaratmağa çalışır. Cəmiyyətlər arasına mümkün qədər idarə olunan gərginlik saxlamaqla bu gərginliklər fonunda özünün Cənubi Qafqaz maraqlarını həyata keçirmək istəyir.



Politoloq Anar Əliyevin "Səs" qəzetinə müsahibəsi

***- Necə düşünürsünüz, Azərbaycan-Ermənistan münasibətlərinin qurulmasına mane olan yalnız Rusiyadırmı?***

- Haqlı sualdır, Ermənistan - Azərbaycan arasında münasibətlərin tənzimlənməsinə mane olan qüvvələr içərisində yalnız rəsmi Kremlini ittiham etmək olmaz, həm də bir sıra Qərbi Avropa dövlətləri də Ermənistan və Azərbaycan arasında münasibətlərin birmənalı şəkildə tam olaraq həll olunmasında o qədər də maraqlı deyillər. Onlar münaqişənin o həddə qədər həll olunmasında maraqlıdırlar ki, Rusiyanın bu proseslərdə iştirakına ehtiyac aradan qalxsın. Amma eyni zamanda, münaqişənin cəmiyyətlərarası münasibətlərin tənzimlənməsinin problemli olaraq o dərəcədə qalmasında da maraqlıdırlar ki, daim Qərb institutlarına, Qərb dövlətlərinə ehtiyac özünü nümayiş etdirsin və özünü göstərsin. Məhz bu ehtiyacdan irəli gələrək həmin dövlətlər Cənubi Qafqaz dövlətlərinə, xüsusilə, Ermənistan və Azərbaycana müəyyən təsir alətləri əldə edərək bu alətlər vasitəsilə region dövlətlərinin fəaliyyətinə onların davranışlarına nəzarəti həyata keçirə bilsinlər. Bu mənada, hesab edirəm ki, Ermənistanda baş verən proseslər həm də revanşist düşüncəli insanlarla yanaşı onların həm Rusiyada, həm də Qərbi Avropada mövcud olan havadarlarının sifarişlərinin nəticəsidir.

***- Ermənistanda hakimiyyət dəyişikliyi baş verə bilərmi?***

- Ermənistanda hakimiyyət dəyişikliyi hələ ki, ciddi təhlükə deyil. Xüsusilə, ötən il keçirilən növbədənkənar parlament seçkilərində erməni cəmiyyətinin Nikol Paşinyana səs verməklə keçmiş prezidentlər Koçaryan və Sarkisyana ”yox” deməklə, əslində, keçmiş prezidentlərə etimad göstərmədiyini bildirməklə yanaşı, həm də revanşist düşüncəyə, faşizmə ”yox” dediyini nümayiş etdirdi. İndiki halda Ermənistan hakimiyyətində, Ermənistan cəmiyyətində Paşinyana ciddi alternativ mövcud deyil. Eyni zamanda, onu da qeyd edim ki, Ermənistanda Ter-Petrosyan hakimiyyətini çıxmaq şərti ilə bu günə qədər mövcud olan hakimiyyətlərin heç biri rasional hakimiyyət olmayıbdır. Ona görə də, Paşinyan və ya digər bir şəxsin hakimiyyətdə olması Ermənistanın Cənubi Qafqaz münasibətləri ilə bağlı yeridə biləcəyi siyasətə ciddi təsir edə bilməyəcək. Xüsusilə, həttа Paşinyan və Sarkisyan cütlüklərinin revanşistlərin, faşist düşüncəli insanların hakimiyyətə gəlməsi belə Ermənistanı razılaşdırılmış 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il, Brüssel və Soçi razılaşmalarını pozmaq nə gücündə nə də iradəsində olacaqdır. Hesab edirəm ki, Ermənistanda hakimiyyətə alternativ qüvvələrdə nə ciddi bir siyasi iradə, nə də cəsarət mövcuddur. Onlar yalnız populistlərdir. Yəni ciddi siyasət adamları deyillər, onlar imzalanmış razılaşmalarla hakimiyyətə gələrlərsə, aralarında çəkişmələr baş verəcək. Bunu özləri də dərk edirlər. Elə bir addımın atılması həmin hakimiyyətin, həm də Ermənistanın birmənalı şəkildə məhv olması və dünyanın siyasi səhnəsindən silinməsinə gətirib çıxara bilər. Ona görə də hesab edirəm ki, Paşinyan və ya digər hər hansı bir qruplaşmanın hakimiyyətdə olmasından asılı olmayaraq mövcud siyasi xətt davam etdiriləcək. Sadəcə, Azərbaycanla münasibətlərin tənzimlənməsi proseslərinin axarına, sürətinə müəyyən təsirlər ola bilər və bu addımların gecikməsi baş verə bilər.

**Gülyana**

# Dnestryanı da “çalxalanır"...

***Moldova hakimiyyəti Ukrayna prezidenti ofisinin müşaviri Aleksey Arestoviçin Dnestryanı ərazinin ələ keçirilməsi ilə bağlı bəyanatına cavab olaraq, Dnestryanı məsələnin həllində hərb yolunu istisna etdiyini bildirib. SİA bu barədə rus saytlarına istinad edir.***



”Dnestryanı məsələsinin həllinə siyasi vasitələrlə və yalnız sülh yolu ilə nail olmaq olar”. Qeyd edək ki, bunu Moldovanın Nazirlər Kabinetinin Reinteqrasiya Bürosunun mətbuat xidməti bildirib.

...Və bununla yanaşı, Kişinyov tanınmamış Dnestryanı Moldova Respublikası ilə münaqişənin həlli üçün hər hansı digər variantları nəzərdən keçirmədiyini də bildirib. Demə, Moldova regionun demokratikləşməsi və demilitarizasiyası prinsiplərinə riayət etmək niyyətində imiş(?).

Xatırladaq ki, bir müddət bundan əvvəl Aleksey Arestoviç Moldovadan müraciət olacağı təqdirdə Kiyevin tanınmamış Dnestryanı Moldova Respublikasının ərazisini nəzarətə götürməyə hazır olduqlarını bildirmişdi. Ukraynalı müşavirin sözlərinə görə, Ukrayna Silahlı Qüvvələrinin bunu reallaşdırmaq üçün hazırda kifayət qədər qüvvəyə malikdir.

Yeri gəlmişkən, bu arada Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov da öz varlığını ”nümayiş etdirərək” Aretoviçin bəyanatını ”kifayət qədər təxribatçı” bəyanat adlandırıb.(...adam az qala ”halal olsun” demək istəyir-A.B.)

...Yenə də yeri gəlmişkən, Sizlərə xatırladım ki, Dnestryanı Moldova Respublikası(?) 1990-cı cı ilin dekabrında vaxtilə bizlər kimi, elə moldovanların da ”böyük qardaşlıq” edən rusların təçəbbüsü ilə, özü də ”halal-hümbət” ”referendum” yolu ilə yaradılaraq ”müstəqil dövlət” elan olunub.

Deyim ki, ”referendum” un rəsmi nəticələrə görə, bu ərazilərdəki seçki hüququ olan əhalinin 97,7 faizi ”müstəqilliyin” lehinə səs verib. (...burada qeyd edim ki, həmən ərəfədə seçki hüququ olan 97,7 faizlik yerli əhalinin yarıdan coxunu moldavanlar təşkil edirdi. Amma nə olasıdı ki, axı ”referendum”u ruslar keçirirdi. Yox, yox...general-leytnant Aleksandr Lebed bu ərəfədə Dnestryanı Moldova Respublikasına hələ gəlməmişdi. Onun gəlişi sonra olacaqdı...-A.B.)

Təbii ki, Moldova bu qərarı tanımadığına görə, münaqişə dərinləşdi və ruslar böyük bir qardaş kimi ”humanistliyini” göstərib öz ”sülhməramlılarını” bura gətirdi. Bundan sonra isə əhalisi heç yarım milyona da çatmayan ”Dnestryanı Moldova Respublikası”nın ”özünü müdafiə” ordusu əhalisi iki milyon yarımlıq Moldova Ordusunu ”sıxmağa” başladı...

...Əslində isə həmən ərəfədə bütün bunların kökündə nəyin dayandığı hamıya olmasa da, amma çoxlarına məlum idi. Deməli, bütün bunların kökündə, yəni münaqişənin alovlanmasında qığılcım rolunu Moldova parlamentinin 1989-cu ildə moldovan dilini dövlət dili elan edib, kiril əlifbasının latın əlifbası ilə əvəz olunması barədə qərarı oynadı.

...Sən demə, Moldovada yaşayan moldovanlar bunu istəmirmiş(?).

...Nə isə, çox dərinə getməyib bu günə qayıdaq.

Deməli, Rusiya-Ukrayna müharibəsi başlayandan bir qədər sonra, artıq ”Dnestryanı Moldova Respublikası”nda da vəziyyət bir qədər dəyişib. Deyəsən, burada da ”nə xalq əvvəlki kimi yaşamaq istəmir, nə də yuxarılar əvvəlki kimi idarə edə bilmirlər”. Yəni ”ölkədə” son günlər silsilə terror aktları səbəbindən terror təhlükəsinin ”qırmızı” səviyyəsi tətbiq edilib. Belə ki, bu günlərdə Tiraspolda (...”ölkə”nin ”paytaxtı”dır) Dövlət Təhlükəsizlik Nazirliyinin binasına qumbaraatandan atəş açılıb, Mayak kəndində radioötürücü antenalar partladılıb, Parkanı kəndində isə partlayış səsləri eşidilib.( ...Sizi deyə bilmərəm, amma mənə elə gəlir ki, bunlar hələ ayaqaçdıdır-A.B.)

Deyilənə görə, artıq ”Respublikanın İstintaq Komitəsi”ndə ”Terror aktı bir qrup şəxs tərəfindən odlu silahdan istifadə etməklə törədildikdə” maddəsi ilə cinayət işi açılıb.

...Kişinyov isə hələ də münaqişənin həlli üçün hər hansı digər variantları nəzərdən keçirmədiyini bəyan edir.

**Ağasəf Babayev**

**AZƏRİ-AUDİT AUDİTOR FİRMASI**

**AZERI-AUDIT AUDITING FIRM**

AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI 1995

AZ-1033 Bakı, A.M.Cümə küçəsi 1C, mən.7
Tel:(+99412) 5117808; Mob:(+99450) 2101357

VOEN: 1300539751
E-mail: azeriaudit@mail.ru

7 apm., 1C A.M.Cuma St, Baku AZ-1033
Tel:(+99412) 5117808 Mob: (+99450) 2101357

## MÜSTƏQİL AUDİTORUN HESABATI

**"Beton Məmulatları" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyinə**

**Rəy**

1. Biz, "Beton Məmulatları" ASC-nin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

2. Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Fəaliyyətin fasiləsizliyinə dair əhəmiyyətli qeyri-müəyyənlil:**

Biz diqqəti "Beton Məmulatları" ASC-nin maliyyə hesabatlarına dair izahedici qeydlərində olan koronavirus infeksiyasının yayılması şəraitində və bunun iqtisadi nəticələri ilə bağlı şirkətin fəaliyyətinin davam etdirilməsinə dair qeyri-müəyyənlik faktorlarına yönəltmək istərdik. İzahedici qeydlərdə hazırki şəraitdə "Beton Məmulatları" ASC-nin öz fəaliyyətinin fasiləsizliyini təmin etmək sahəsində əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması göstərilmişdir. Bu şəraitlə əlaqədar biz öz mülahizələrimizə dəyişikliklər etməmişik.

**Əsas audit məsələləri**

3. Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə hesabat dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

1

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

4. Rəhbərlik maliyyə hesabatlarının IFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

5. Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**"Azəri-Audit Auditor"firmasının direktor-auditoru** **Fuad Namazəliyev**

Bakı, Azərbaycan Respublikası
29 aprel 2022-ci il № VfeEd0WtcF

2

*"Beton məmulatları" Açıq Səhmdar Cəmiyyəti*

### *Mühasibat balansı*

*31 Dekabr 2021-ci il tarixinə*

(Azərbaycan manatı ilə)

| Maddənin №-si | | Qeydlər | 2021 | 2020 |
|---|---|---|---|---|
| | **AKTİVLƏR** | | | |
| 1 | **Uzunmüddətli aktivlər** | | | |
| 10 | Qeyri-maddi aktivlər | | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 6 | 202990.62 | 219409.11 |
| 12 | Daşınmaz əmlaka investisiyalar | | | |
| 13 | Bioloji aktivlər | | | |
| 14 | Təbii sərvətlər | | | |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | |
| 16 | Təxirə salınmış vergi aktivləri | | | |
| 17 | Uzunmüddətli debitor borcları | | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | | |
| 19 | Sair uzunmüddətli aktivlər | | | |
| | **Cəmi uzunmüddətli aktivlər** | | **202990.62** | **219409.11** |
| 2 | Qısamüddətli aktivlər | | | |
| 20 | Ehtiyatlar | | | |
| 21 | Qısamüddətli debitor borcları | 7 | 575482.36 | 534192.92 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 8 | 19615.54 | 15484.78 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | | |
| 24 | Sair qısamüddətli aktivlər | 9 | 83226.08 | 83226.08 |
| | **Cəmi qısamüddətli aktivlər** | | **678323.98** | **632903.78** |
| | **CƏMİ AKTİVLƏR** | | **881314.60** | **852312.89** |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| 3 | **Kapital** | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | 13 | 463984.00 | 463984.00 |
| 31 | Emissiya gəliri | | | |
| 32 | Geri alınmış kapital (səhmlər) | | | |
| 33 | Kapital ehtiyatları | | 24914.00 | 24914.00 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 104917.07 | 104917.07 |
| | **Cəmi kapital** | | **593815.07** | **593815.07** |
| 4 | **Uzunmüddətli öhdəliklər** | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | | |
| 43 | Uzunmüddətli kreditor borcları | | | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | | |
| | **Cəmi uzunmüddətli öhdəliklər** | | | |
| 5 | **Qısamüddətli öhdəliklər** | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 10 | 18555.19 | 16310.49 |
| 53 | Qısamüddətli kreditor borcları | 11 | 8481.81 | 7623.98 |
| 54 | Sair qısamüddətli öhdəliklər | 12 | 260462.53 | 234563.35 |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | **287499.53** | **258497.82** |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | **287499.53** | **258497.82** |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **881314.60** | **852312.89** |

RƏHBƏR
BAŞ MÜHASİB

# "Pandemiyanın sona çatdığının elan olunması gözlənilə bilər"



***"Koronavirus peyvəndlərinin mövsümi peyvənd kimi istifadə edilməsi ilə bağlı ehtimal mövcuddur". SİA-nın verdiyi məlumata görə, bu sözləri jurnalistlərə açıqlamasında səhiyyə naziri Teymur Musayev deyib.***

Onun sözlərinə görə, gözlənti elədir ki, kollektiv immunitet nəticəsində ola bilər pandemiyanın sona çatdığı elan olunsun: "Amma çox ehtiyatlı olmalıyıq. Payız ayına kimi müəyyən gözləntilər var. Payızda sıçrayış olmasa bu məsələ qapalı kimi elan oluna bilər".

# Bu xəstəliklərdən əziyyət çəkənlər pensiya alacaq



"Onkoloji yardım haqqında" və "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik Milli Məclisin iclasında müzakirəyə çıxarılıb.Trend-in məlumatına görə, qanun layihəsi onkoloji xəstələrin, eləcə də dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sosial müavinət və (və ya) əmək pensiyası almaq hüququnu müəyyənləşdirir.

Layihə "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihələrinə uyğunlaşdırma xarakteri daşıyır və xəstəlikdən əziyyət çəkən şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. Dəyişikliklər səsverməyə qoyularaq birinci oxunuşda qəbul edilib.

# Ermənistanda əsgər əsgəri güllələyib



Ermənistandakı hərbi hissələrdən birində əsgər odlu silahdan açılan atəş nəticəsində yaralanıb. APA xəbər verir ki, bu barədə Ermənistanın Müdafiə Nazirliyi məlumat yayıb. "Aprelin 28-i, saat 19.20 radələrində N saylı hərbi hissənin əsgəri, 2002-ci ildə anadan olmuş Samvel Sanoyan əsgər yoldaşının açdığı atəş nəticəsində yaralanıb. O, xəstəxanaya aparılarkən yolda vəfat edib" - deyə məlumatda bildirilir. Faktla bağlı təhqiqat aparılır.



# Arzu olunanı “həqiqət” kimi təqdim etmək: erməni siyasətinin trendi...

**Son bir neçə gündür siyasi gündəmi zəbt edən mövzulardan biri də həftənin sonuna qədər Ermənistan və Azərbaycan arasında əldə edilmiş razılığa əsasən dövlət sərhədlərinin müəyyənləşməsi istiqamətində birgə işçi qrupunun yaradılması və sülh müqaviləsinin işlənməsi ilə bağlıdır.**

Lakin bu gündəmi də, hələlik, bir kənara qoymaqla, gəlin Ermənistanın hələ də ”status” ətrafındakı var-gəllərini müşahidə edək və bəzi nəticələri çıxaraq. Eləcə də, bəri başdan qeyd edək ki, istənilən halda bu mövzu Azərbaycan üçün bağlıdır. Prezident İlham Əliyev hələ 2020-ci ilin 10 noyabr tarixində sözügedən mövzunun həm onun özü üçün, həm də dövlət və xalq üçün bağlandığını vurğulayıb. Və əbəs deyil ki, o, həmin vaxt ”Nə qədər ki, mən Prezidentəm, bu mövzu olmayacaq!” bəyanatını qətiyyətlə səsləndirib. Məhz bu xüsusda onu da nəzərə alsaq ki, dövlətimizin başçısı öz sözünə necə əməl edir, bu zaman hər şey gün kimi aydın olur - bəli, ”status”, sözün əsl mənasında, cəhənnəmə göndərilib!

Artıq nəinki ”status” məsələsinə son qoyulub, eyni zamanda, bir sıra xarici siyasətçilər, diplomatlar Qarabağla bağlı səsləndirdikləri fikir və bəyanatlarında terminləri seçərkən bilavasitə İlham Əliyev tərəfindən formalaşdırılmış ifadələr çərçivəsində çıxışlar edirlər. ”Dağlıq Qarabağ” mövzusu gündəmdən çıxarılır və Azərbaycanın Qarabağ regionu yeni siyasi reallığa daxil olur.

## ”Status” - ərazi, yoxsa insanlar üçün?

İndi isə gəlin son vaxtlara qədər nala-mıxa döyəcləyən Ermənistanın nə demək istədiyini anlamağa çalışaq. Ermənistanın baş naziri Nikol Paşinyanın bu yaxınlarda ”Qarabağ üçün ”plankanı” (barını) aşağı salmaq” haqqında irəli sürdüyü fikrindən belə bir nəticə çıxara bilərik ki, hərgah Ermənistan Azərbaycanla sülh müqaviləsini imzalayacaqsa, keçmiş ”Dağlıq Qarabağı” Azərbaycanın tərkib hissəsi kimi tanıyacaqsa belə, davamlı olaraq Qarabağ ermənilərinin təhlükəsizlik məsələlərini gündəmdə saxlayacaq. Daha dəqiq desək, Ermənistan ərazi məsələsindən kənara çıxır və mövzunu humanitar səviyyəsinə gətirir - Qarabağ ermənilərinin Azərbaycan tərkibində hüquqlarının təmin olunması. Yəni Paşinyana görə, sən demə ”beynəlxalq ictimaiyyət” mövcud məsələni başqa cür qəbul edə bilməz və s.

Habluki, Ermənistan düz 1,5 ildir ”status” mövzusunu hazırkı zamana qədər təşkil edilmiş heç bir danışıqlar formatına daxil edə bilməyib. Necə deyərlər, gorbagor olmuş ATƏT-in Minsk qrupu isə ümumiyyətlə, sözügedən mövzunu dilinə gətirməyə cürət edə bilmədi.

## Lakin məsələ ondadır ki...

Amma söhbət həm də ondan ibarətdir ki, Rusiya da daxil olmaqla nə Avropa İttifaqı, nə də ABŞ bəhs edilən mövzu ətrafında heç də danışmaq istəmədiklərini demirlər. Yəni imkan olan kimi bu mövzunu gündəmə gətirmək üçün yollar axtarırlar. Rusiya ilə Avropa İttifaqının mövzu ilə bağlı fikirləri demək olar ki, paralellik təşkil edir, yəni dövlətlərarası münasibətləri normallaşdırdıqdan sonra bu mövzu barədə müzakirələrə başlamaq olar. Daha dəqiq desək, Azərbaycanın tələblərini və şərtlərini həyata keçirmək, sonra isə Qarabağ ermənilərinin mövcudluqlarını təmin etmək üçün ”status” məsələsini qaldırmaq. İstər Rusiya, istərsə də Aİ Ermənistana çatdırmağa çalışırlar ki, hazırkı mərhələdə ”status” məsələsinin qabardılmaması hər iki ölkəyə - həm Ermənistana, həm də Azərbaycana sülhə doğru irəliləmək imkanlarını artırır. Beləliklə, Bakı üçün mövzu bağlıdır, İrəvan isə Qarabağ ermənilərinə vədlər verir ki, indi olmasa da, sonra bu mövzu müzakirəyə çıxarılacaq.

## Amma necə, kiminlə, harada?

Ehtimal etmək olar ki, sülh müqaviləsi imzalanarsa, kommunikasiyalar açılarsa, Moskva və Brüssel Bakı ilə aparılan danışıqlarda ”status” məsələsini yenidən gündəmə çıxarmağa çalışacaqlar və belə olan halda yenə də hər şey Bakıdan asılı olacaq - müzakirələrə razılıq veriləcək, yoxsa verilməyəcək, yaxud müzakirələr hansı istiqamətdə aparılacaq...

Qeyd edək ki, Bakı hazırladığı və açıqlamadığı ”Qarabağ ermənilərinin reinteqrasiyası mexanizmləri”ni nümayiş etdirmir. Daha doğrusu isə, əgər Rusiya və Avropa İttifaqı həmin mövzunu qabardarsa, bu mövzuya veriləcək cavablar da mövcuddur.

## Ya ”şirin çörək” yeməli, ya da ”qamçı” dadmalı...

Habelə, Azərbaycanın şərtləri var və bu şərtlər realizə olunmalıdır. Misal üçün, sülh danışıqları ilə yanaşı, Qarabağ regionunun demilitarizasiyasını həyata keçirmək vacibliyi mövcuddur. Yox, əgər istər demilitarizasiya da daxil irəli sürülən şərtlər realizə olunmazsa, onda erməni tərəfi ”şirin çörəklər” yerinə ”qamçı” yemək məcburiyyətində qalmalı olacaqlar. Nəticənin necə olacağından asılı olmayaraq Ermənistan proseslərin xaricində qalacaq. Yeni Laçın dəhlizi sadəcə bir yoldur və o Qarabağı iqtisadi cəhətdən Ermənistandan uzaqlaşdıracaq. Əgər İrəvan hələ də ümidlərini xəyalpərəstliyə söyləyirsə, bu da lazımsız cəhdlərdir. Yəni fakt budur ki, arzu olunanı ”həqiqət” kimi təqdim etmək erməni siyasətinin trendinə çevrilib.

Dünyadakı qeyri-müəyyənliyin uzunmüddətli tendensiya xarakteri aldığını da əlavə etsək, İrəvanın, hətta utopik planlar qurmaq məqsədləri də tamamilə ümidsizliyə gətirib-çıxaracaq. İndi isə ortada olan reallıqlar əsas kimi götürülür - sərhədlərin dəqiqləşdirilməsi, kommunikasiyaların açılmasını şərtləndirən sülh müqaviləsinin imzalanması, İrəvan nala-mıxa döyəcləməməli və birdəfəlik həqiqətləri anlamalı, dərk etməlidir.

*Rövşən RƏSULOV*

SİYASİ RAKURS+AKTUAL



Elçin Bayramlı
elchinbayramlı@mail.ru

# Qaz xəttinə niyə hava vurulur?

***Son vaxtlar sosial şəbəkələrdə yayılan videolarda Azəriqaz işçilərinin texniki proses apardığı görüntülər yayılır və iddia olunur ki, burada qaz boru xətlərinə hava vurulur və abonentlərə verilən qaza hava qatılır və onlar aldadılır. Bu həqiqətənmi belədir, bu iddialar nə dərəcədə əsaslıdır? Aydınlaşdıraq.***

Qaz təchizatında həllini gözləyən müəyyən problemlər var, lakin qaz xətlərinə hava vurulub abonentlərə satılması ilə bağlı yayılan məlumatlar əsassızdır. Mən şəxsən bu məsələni peşəkar mütəxəssislər vasitəsilə araşdırdım, hətta Azəriqazın təchizat və təmir sahəsində uzun müddətdir çalışmış texniklərlə də danışdım. Bu hal tamamilə başqa texniki prosesdir. Burada müxtəlif obyektiv səbəblərdən bəzi hallarda qaz xətlərinin təmizənməsi prosesi aparılır. Məsələn, bəzi hallarda, vətəndaşların apardığı təmir işləri zamanı borular zədələnir və ya başqa səbəbdən çox köhnə dövrdən qalmış boru çürüyür, su və qaz boruları qarışır və qaz xəttinə su düşmüş olur.

Bu halda problemi həll etmək üçün yeganə texniki üsul var ki, bütün dünyada tətbiq olunur. Həmin boru xətti hər iki tərəfdən bağlanır, qaz verilişi dayandırılır və xətdəki suyu çıxarmaq üçün kompressorla yüksək təzyiqli hava vurulur boru təmizlənir. Sonra qaz verilişi bərpa olunur. Bu proses zamanı abonetlərə qaz verilmədiyindən sayğac da yaza bilməz. Prosesdən sonra yalnız 2-3 saniyə hava gələ bilər ki, bu da boruda qalmış cüzi hava ilə bağlıdır. Həmin borunun içində qalmış cüzi hava, qaz verilişi bərpa olunarkən ilk saniyələrdə hətta sayğacdan keçərək qaz cihazlarına gəlsə belə heç 1 qəpik də yaza bilməz.

Ümumiyyətlə, qaz xəttinə hava qarışdırıla bilməz, oksigen qazla qarışaraq partlayışlar törədə bilər. Bu qazların sıxlığı, tərkibi, xüsusiyyəti tamam fərqlidir. Sosial şəbəkələrdə yayılmış videolarda da görünür ki, bu proses günün günorta çağı hamının gözü qabağında aparılır, halbuki belə bir məqsəd olsa bunu gecə vaxtı və ya yaşayış massivindən kənarda gizlicə edərdilər. Yəni, burada texniki mümkünsüzlükdən əlavə, məntiq də yoxdur.

Bildiyimiz kimi, bütün jurnalist fəaliyyətim boyu tənqidçi jurnalist kimi tanınmışam, sosial problemlərin hamısı üzrə sərt tənqidi yazılarla, ifşaedici faktlarla çıxış etmişəm. Lakin obyektivlik hər şeydən üstündür. Qaraya qara, ağa da ağ deməliyik. Bu qeyd etdiyimiz mövzuda məsələ belədir. Hər hansı digər problemlərlə bağlı tənqidi çıxışlarımız davam edəcək.

İnsafən, Azəriqazın işində son vaxtlar xeyli müsbət dəyişikliklər baş verib, idarənin qaynar xətti son vaxtlarda şikayətlərə və məlumatlara operativ reaksiya verilir və problemin dərhal aradan qaldırılması üçün tədbir görülür.

Qaz təchizatı ilə bağlı başqa problemlər var ki, bununla bağlı biz də dəfələrlə tənqidi münasibət bildirmişəm. Hər hansı bir abonentin probleminə Azəriqaz tərəfindən vaxtında reaksiya verilmədikdə mənə müraciət edə bilərlər, mən həmin problemin daha tez həllinə kömək etməyə çalışacam. Müraciət üçün öz şəxsi e-poçtamı da əlavə edirəm. Hər hansı bir problem və şikayətlərinizi bu e-poçt vasitəsilə yaza bilərsiniz.

# “Şuşada keçirilən beynəlxalq konfrans imkan verir ki,...”

***“Dünyanın beyin mərkəzlərini təmsil edən nümayəndələrin Qarabağa səfəri və Şuşada beynəlxalq konfransın keçirilməsi olduqca əhəmiyyətli hadisədir”. Bu fikirləri SİA-ya açıqlamasında Trend BİA-nın Baş direktorunun müavini, siyasi ekspert Sahil Kərimli bildirib.***

Onun sözlərinə görə, dünya miqyaslı nüfuzlu ekspertlər, tədqiqatçı alimlər, media nümayəndələri azad edilmiş ərazilərimizlə tanış olub, həm erməni vəhşiliyini, bununla yanaşı sürətlə davam edən bərpa-quruculuq prosesini öz gözləri ilə görüblər: ”Bu, çox önəmlidir. Çünki, tədbirlər çərçivəsində dünya ictimaiyyəti Azərbaycanın bölgədə yaratdığı yeni reallıqlarla daha aydın tanış olur, Qarabağ və Şərqi Zəngəzurun sıfırdan qurulması prosesini izləyir. Şuşada keçirilən beynəlxalq konfrans imkan verir ki, dünyanın 20-dən çox ölkəsindən gələn beyin mərkəzlərinin nümayəndələri yaşayış məntəqələrimizin ermənilər tərəfindən necə viran qoyulması, ərazilərimizin dağıdılması, yerlə yeksan edilməsi, mədəni, dini, tarixi abidələrimizin məhv edilməsi, ekoloji terror həyata keçirilməsi və digər vandal hərəkətlərin şahidi olsunlar.

Məlumdur ki, Ermənistan işğal dövründə Azərbaycan ərazilərini kütləvi şəkildə minalayıb. Ermənilərin bu cinayətlərindən əziyyət çəkən Azərbaycan ərazilərin minalardan təmizlənməsi prosesini də sürətlə həyata keçirir. Amma vəziyyət o qədər mürəkkəbdir ki, minatəmizləmə işləri xeyli vaxt aparır. Çünki Ermənistan az qala hər qarış ərazini minalayıb, tələ minalar quraşdırılıb. Məqsəd daha çox mülki əhalinin qətl edilməsi, əlil və şikəst buraxılmasıdır. Beynəlxalq ictimayyətin bu reallıqları da bilməsi çox vacibdir və qonaqlar səfər çərçivəsində ərazilərin minalardan təmizlənməsi prosesini də yaxından izləyiblər. Bütün bunlar bir daha dünyaya göstərir ki, Azərbaycan uzun illər olduqca təhlükəli düşmənlə üz-üzə olub, Ermənistanın işğalçılıq, vandalism, faşizm siyasətindən əziyyət çəkib, miqyasa gəlməyən maddi-




mənəvi itkilərə məruz qalıb. Ümumiyyətlə, Qarabağda, Şuşada beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün çox önəmlidir və dövlətimiz bunun üçün bütün resurslardan istifadə edir.

Azərbaycan Qarabağı və Şərqi Zəngəzuru azad etməklə bölgədə terorun, separatçılığın kökünü kəsib, biz Cənubi Qafqazda sülh və təhlükəsizliyə töhvə verməkdə qərarlıyıq və Şuşa tarixi Azərbaycan şəhəri kimi artıq beynəlxalq tədbirlərə ev sahibliyi edən şəhər imici qaznıb. Bir sözlə, Azərbaycan dünyaya Şuşadan növbəti mesaj verir - Biz Cənubi Qafqazda genişmiqyaslı inkişafa, çoxşaxəli əməkdaşlığa töhfə verməyə hazırıq və buna əzmlə davam edəcəyik”.

*Abutel İlhamqızı*

***Belaruslu politoloq və publisist, tarix elmləri namizədi Valeri Karbaleviç "Caliber" analitik mərkəzinə müsahibəsində Ukraynadakı müharibə və regionda baş verən proseslər haqda maraqlı fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Valeri Karbaleviç: “NATO ilə Rusiya arasında tammiqyaslı müharibə Qərbin maraqlarına qətiyyən uyğun gəlmir”

***- Valeri İvanoviç, Rusiya Federasiyası Təhlükəsizlik Şurasının (SB) sədr müavini Dmitri Medvedevin İsveç və Finlandiyanın NATO-ya daxil olması ilə bağlı sərt bəyanatını necə qiymətləndirirsiniz?***

- Rusiyanın Ukraynadakı hərəkətləri əslində NATO hərbi-siyasi blokuna ikinci həyat verdi. Fakt budur ki, Sovet İttifaqı dağılandan sonra, Varşava Müqaviləsi dağılandan sonra, çoxlu suallar çıxdı-NATO bundan sonra nə etməlidir? Kiminlə döyüşməli? Prinsipcə, bu ittifaqın mövcudluğunun mənası nədir? NATO, məsələn, terrorizmlə mübarizə kimi yeni funksiyalar və vəzifələr tapmağa çalışdı. Müvafiq olaraq, Krımın ələ keçirilməsindən sonra Rusiyanın hərəkətləri və sonradan Ukraynaya hücumu əslində NATO-nu öz kimliyini formalaşdırmağa, hətta deyərdim ki, Sovet İttifaqı və Soyuq Müharibə dövründə olan keçmiş şəxsiyyətə qayıtmağa məcbur etdi. Yəni, meydana çıxan düşmən NATO-ya əvvəlki funksiyasına qayıtmağa imkan verdi.



Fevralın 24-dən sonrakı hadisələr göstərdi ki, Qərb konsolidasiya edilmiş şəkildə hərəkət edir, həm Qərb ölkələri arasında, həm də onların daxilində birlik nümayiş etdirib. Nəticədə Rusiyaya rəğbət bəsləyən bütün siyasi qüvvələr yox oldu.

Öz növbəsində, İsveç və Finlandiyanın NATO-ya daxil olmaq qərarı Rusiyanın Ukraynadakı müharibəsi nəticəsində Qərbdə yeni konsolidasiya edilmiş tendensiyanın bir hissəsi oldu. Finlandiya və İsveçin hərbi potensialının o qədər də böyük olmadığını nəzərə alsaq, bu iki ölkənin üzv olmasının Rusiya Federasiyası ilə NATO arasında qüvvələr balansını hansısa formada dəyişəcəyini düşünmürəm. Burada hərbi faktorlar deyil, siyasi və geosiyasi amillər önəmlidir. Aydındır ki, Rusiya təcrid vəziyyətinə düşüb və Qərb dünyası ona qarşı getdikcə güclənir. Bu proseslər Rusiya üçün ağrılıdır, ona görə də çox mənfi reaksiya verir.

Rusiyanın Ukraynadakı müharibəsi Qərb ölkələrində siyasi qərarların qəbulunu kəskin surətdə sürətləndirib. Ya bütün prosedurları dəyişdilər, ya da sadəcə kənara çəkildilər. Görün, Rusiyaya qarşı iqtisadi sanksiyalar qısa müddətdə necə qəbul edildi, eləcə də Ukraynaya silah-sursat tədarükü ilə bağlı məsələlər. Ona görə də istisna etmirəm ki, İsveç və Finlandiyanın NATO-ya qəbulu sürətləndirilmiş rejimdə baş verə bilər. Müharibə öz dinamikasını bütün siyasi proseslərə, o cümlədən NATO üzvlüyünə diktə edir.

***- Bu halda Rusiya Federasiyası tərəfindən konkret hansı addımlar atılacaq?***

- İnanıram ki, rəsmilər səviyyəsində bəzi ritorik bəyanatlar və ya Rusiyadan cavab olaraq hansısa ciddi addımlar istisna olmaqla, olmayacaq. Məlumat var ki, Finlandiya sərhədlərinə bəzi qoşunlar gətirilir, texnika gətirilir və sair, lakin bu, çox güman ki, real təhlükə üçün deyil, qorxutmaq üçün edilir. Rusiya Ukrayna bataqlığında o qədər bataqlaşıb ki, hərbi cəhətdən başqa çağırışlara cavab vermək iqtidarında deyil. Buna görə də, Rusiya Federasiyası tərəfindən bəzi simvolik hərəkətlər mümkündür və başqa heç nə yoxdur. Bundan başqa, dediyim kimi, alyansın genişlənməsi Rusiya ilə NATO arasında qlobal güc balansını dəyişməyəcək.

***- Sizcə, NATO Polşanın Ukrayna ərazisinə sülhməramlı qüvvələrin yerləşdirilməsi təklifi ilə niyə razılaşmadı?***

- Görün, Ukrayna ərazisinə sülhməramlı qüvvələrin yeridilməsi nə deməkdir. Sülhməramlı qüvvələr tərəflərin müharibəni dayandırmaq, sülh haqqında razılığa gəldiyi, mümkün hərbi insidentlərin qarşısını almaq üçün bu qoşunların müxtəlif istiqamətlərə dağıdılması zərurəti yarandığı anda tətbiq edilir. Bu variant Donbasda hətta müharibə başlamazdan əvvəl, fevralın 24-nə qədər ola bilərdi ki, qarşı tərəf bir-birinə atəş açmasın. Ancaq burada iki şərt var. Birincisi, hər iki tərəfin razılığı, ikincisi, sülhməramlı qüvvələrin, məsələn, Asiyadan, Latın Amerikasından və ya BMT-nin himayəsi altında mümkün qədər neytral olmasıdır. Yalnız bu ssenaridə Polşanın təklifini real variant hesab etmək olar.

Digər tərəfdən, Moskva bu addımı NATO-nun müharibəyə birbaşa müdaxiləsi kimi qiymətləndirəcək.

***- Yəni, bu səbəbdən NATO-nun Ukrayna səmasını bağlamaq qərarı qəbul olunmadı, o cümlədən?***

- Bəli. Çünki əks halda bu, NATO ilə Rusiya arasında tammiqyaslı müharibə demək olardı ki, bu da Qərb alyansının maraqlarına qətiyyən uyğun gəlmir. Rusiya Federasiyası ilə NATO arasındakı hazırkı qarşıdurma Rusiya ilə Qərb sivilizasiyası arasındakı münaqişədir. Ukrayna həqiqətən də rus dünyasının və rus sivilizasiyasının bir hissəsi olmaqdan imtina etdiyinə və Qərbə inteqrasiya lehinə tarixi seçim etdiyinə görə biz ümumilikdə Rusiya ilə Qərb dünyası arasında münaqişənin şahidi oluruq. Ukrayna isə sadəcə olaraq münaqişə platformasıdır.

***- Bu müharibədə Rusiya üçün rasional məna nədir?***

- Hesab edirəm ki, Rusiyanın maraqları baxımından belə, müharibəyə başlamağın rasional mənası yox idi. Amma Kremlin bəzi qərarları rasionalizmə əsaslanaraq qəbul etmədiyi hallar var.

***- Müharibə nə qədər davam edəcək və necə başa çatacaq?***

- Bunun nə qədər davam edəcəyini söyləmək çətindir, lakin tam əminliklə demək olar ki, Ukraynadakı hərbi əməliyyatların nəticəsindən asılı olmayaraq, Rusiya bu prosesdə qalib deyil. Təsəvvür etsək belə, rus ordusu Ukrayna ordusunu məğlub edib Ukraynanın hansısa bir hissəsini ələ keçirəcək, sual yaranır ki, bundan sonra nə olacaq? Ukraynanın bu ərazisinə işğalçı ordu necə nəzarət etməlidir?

Düşünürəm ki, bu, uzun sürən soyuq müharibə olacaq. Digər tərəfdən, Qərbin sanksiyaları Rusiyanı qlobal iqtisadiyyatdan çıxarır, Rusiya ilə Qərb və Çin arasında texnoloji uçurumu artırır, əslində Rusiya iqtisadiyyatını Sovet dövrünə sürükləyir. Çox güman ki, cəbhələrdə hərbi uğur qazanacağı halda belə, Qərbin sanksiyaları Rusiyanın deqradasiyasına gətirib çıxaracaq. Əgər Qərb Rusiya neft və qazından imtina edə bilsə, o zaman Rusiya iqtisadiyyatı ilə bağlı vəziyyət daha da pisləşəcək.

***- Ukraynanın gələcəyini necə görürsünüz?***

- Çox çətin sualdır. Hər şey müharibənin nə qədər davam edəcəyindən, bitdikdən sonra ölkənin hansı mövqedə olacağından asılıdır. Görürsünüz, hərbi nəticə Ukrayna üçün çox önəmlidir, Rusiya üçün isə daha az əhəmiyyət kəsb edir. Şübhəsiz ki, müharibə Ukrayna millətinin və kimliyinin formalaşmasını tamamlayır. Müharibə göstərdi ki, Ukrayna hakimiyyəti və Ukrayna cəmiyyəti Rusiya ilə qarşıdurmada birləşib. Nəzərə alın ki, Ukraynanın işğal olunmuş ərazilərində ruslar Rusiya Federasiyası ilə əməkdaşlıq edə biləcək nüfuzlu şəxslər və siyasətçilər tapa bilmirlər.

Düşünürəm ki, Ukrayna xalqı formalaşandan sonra onun Qərb birliyinə inteqrasiyası dönməz xarakter alacaq. Və Ukraynanın iqtisadi və sosial baxımdan çətin dövrlərdən keçməli olacağı da göz qabağındadır. Ukrayna ciddi sınaq qarşısında qalıb və Qərbin köməyi ilə bu sınaqdan çıxmalı olacaq.

**Müsahibə aldı - Mətanət Nəsibova**

***Tərcümə etdi - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
30 aprel
2022-ci il

# “Qalatasaray”da prezident seçkiləri ləğv olundu




*“Qalatasaray"da aprelin 30-da keçirilməsi planlaşdırılan prezident seçkiləri ləğv olunub. Qol.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, buna səbəb Apellyasiya Məhkəməsinin Ümumi Yığıncaqla bağlı qərarı olub. Bildirilib ki, klubun prezident seçkisi keçirilməyəcək.*

Daha əvvəl məhkəmə aprelin 19-da da seçkini ləğv etmişdi. Lakin Asliye Hüquq Məhkəməsi prosesin baş tuta biləcəyini açıqlamışdı.

Qeyd edək ki, ”Qalatasaray”ın hazırkı prezidenti Burak Elmasdır. İdarə Heyəti onun fəaliyyətindən razı qalmadığı üçün yeni prezident seçmək qərarı alınmışdı.

# “Gənclərin sosial şəbəkəyə marağını düzgün dəyərləndirmək lazımdır”



*“Dövrümüzün yeni yaşam tərzi olan, uşaqdan-böyüyə hər kəsi əhatə edən sosial şəbəkələr həyatımızda baş verənləri özündə əks etdirir. Əgər cəmiyyətdə şiddət və ya hansısa problem, marağa səbəb olacaq bir şey varsa, bu, sosial şəbəkədə də öz əksini tapır". Bu sözləri SİA-ya açıqlamasında yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov deyib.*

Onun sözlərinə görə, illər boyu bu şiddəti, ölüm hadisələrini komputer oyunlarında, telekanallarda nümayiş olunan film və seriallarda görürdük: ”İndiki zəmanədə isə bunların təzahürünü artıq sosial şəbəkələrdə görürük. Nəinki uşaqlar, gənclər hətta yaşlılar da öz həyatını anında paylaşırlar. Ona görə də günümüzdə baş verən hadisələrin sosial mediada yayımlanması artıq normal qarşılanmalıdır”.

Ekspert sözlərinə davam edərək həmçinin qeyd edib ki, son vaxtlar ”Tiktok” sosial şəbəkəsində yayımlamaq üçün iki qızın tuneldə qaçması, yeniyetmə oğlanların öz yaşıdlarını döyməsi kimi hallar baş verir: ”Görünür ki, bu hadisələr baş verməyə davam edəcək. Hər kəs öz kreativ düşüncələrini sosial şəbəkələrdə paylaşmaq istəyir. Bu, dünyanın hər yerində belədir. Bəzi ölkələrdə bunlar pul qazanmaq üçün edilir. Lakin bizim ölkədə insanlar hələki sadəcə özlərini realize etmək, mənəvi tələbatlarını ödəmək üçün bundan istifadə edir. Yeniyetmələrin, xüsusilə də qız uşaqlarının belə təhlükəli yollara əl ataraq video çəkməsi, bunu kütləviləşdirməsi mənfi hal olsa da, dövrümüzün tələblərindən biridir. Düşünürəm ki, biz bu qədər insanla mübarizə apara bilmərik. Sadəcə bu cür insanlara alternativ yollar göstərməliyik. Gənclərə təbliğ etmək lazımdır ki, sosial şəbəkələrdə ətraflarında baş verən müsbət hadisələri, eyni zamanda ölkəmizin inkişaf proseslərini, gözəlliyini əks etdirən videolar paylaşmalıdır. Məncə, bu daha maraqlı olar. Gənclər üçün istiqamətverici layihələr hazırlanmalıdır. Onların sosial şəbəkəyə olan marağını düzgün dəyərləndirmək lazımdır”.

**Ləman Əlizadə**

# 84 il eyni şirkətdə çalışan 100 yaşlı braziliyalı!

***Braziliyada 100 yaşlı kişi 84 il eyni şirkətdə çalışıb. Ginnes Rekordlar Kitabının saytına görə, braziliyalı Uolter Ortman 15 yaşında işə düzəldiyi şirkətdə 84 ildən çox çalışıb. Beş uşaqlı ailənin böyüyü olan Uolter ailəyə maddi yardım göstərmək üçün 1938-ci ilin yanvarında ”ReneauxView”də çatdırılma üzrə köməkçi olaraq işə başlayıb.***



Alman dilini bilməsi və novatorluğa can atması gəncin karyera pillələri ilə yüksəlmək şansını sürətləndirib. Vaxt keçdikcə o, satıcı, sonra satış meneceri vəzifəsinə yüksəlib. 2022-ci ilin aprelində Ortmanın 100 yaşı tamam olub və o, yüzillik yubileyini təkcə qohumları və dostları ilə deyil, həm də həmkarları ilə qeyd edib.

Uolterin eyni şirkətdəki uzun müddətli karyerası Ginnesin Rekordlar Kitabı tərəfindən sertifikatlaşdırılıb. Bu müdrik, intizamlı və çalışqan insan 2019-cu ildə əmək kitabçasındakı iş stajı 81 il 85 gün olmaqla rekord qazanmağa müvəffəq olub.

# ŞOK XƏBƏRDARLIQ: Qlobal istiləşmə heyvanlarda minlərlə virusa səbəb olacaq

Qlobal iqlim dəyişməsi heyvanlar arasında minlərlə yeni təhlükəli xəstəliklərin yayılmasına səbəb olacaq. Onlardan bəziləri isə insana da ötürülə bilər. ”MedikForum”un yazdığına görə, yeni araşdırmaya əsasən, iqlim dəyişikliyi səbəbindən, COVID-19 pandemiyasına səbəb olan bənzər minlərlə yeni virus 2070-ci ilə qədər heyvanlar arasında yayılacaq. Onlardan bəziləri, çox güman ki, insanlara ötürülmə imkanını əldə edəcək. Bu, xüsusilə Afrika və Asiya, son bir neçə onillikdə ölümcül təhlükəli zoonozların, yəni heyvanlardan insanlara ötürülən xəstəliklər ocağı olan qitələrə aiddir. Həmin xəstəliklərə qrip, HİV, Ebola və COVID-19 daxildir.



Tədqiqat müəllifləri 3000-dən çox məməli növünün növbəti 50 il ərzində virus mübadiləsi üçün qlobal istiləşmə səbəbindən necə miqrasiya edə biləcəyini öyrənməyə kömək edən xüsusi modeldən istifadə ediblər. Bu, planetdə orta temperaturun 2C yüksələcəyi təqdirdə baş verəcək. Son araşdırmalar bunun tamamilə mümkün olduğunu göstərir. Müəyyən edilib ki, virusların növlərarası yayılması təkcə məməlilər arasında 4000 dəfədən çox baş verib. Bu virusların çoxu yarasalara təsadüf edir. Tədqiqata quşlar və dəniz heyvanları daxil edilməyib.

Təbii ki, heç də bütün viruslar insanlara keçməyəcək və ya koronavirus kimi pandemiyaya çevrilməyəcək. Lakin bu növlərarası ötürülmələr nə qədər çox olarsa, patogenin heyvanlardan insanlara keçmə riski bir o qədər yüksəkdir. Yalnız bütün ölkələrin atmosferə istixana tullantılarının azaldılmasına yönəlmiş birgə səyləri qlobal istiləşməni dayandıra bilər.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220